YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

03 dekabr
2024-cü il,
çərşənbə axşamı
№ 222 (6808)
Qiymәti
60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Bir güllə atılmadan...



Bax səh. 2



## Sülh üçün yeni imkanlar

Bax səh. 2

## Böyük perspektivə malik əməkdaşlıq

Bax səh. 3

## "Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış"

Dekabrın 2-də parlamentdə Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış" mövzusunda ictimai dinləmə keçirilib. Dinləməni giriş sözü ilə açan Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri və Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri Əziz Ələkbərov bildirib ki, Qərbi Azərbaycan İcmasının hazırladığı sənədlər qısa müddətdə beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də rəsmi sənədlər kimi təqdim edilib. Qurumun bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı, UNESCO ilə əməkdaşlığı genişlənib. 2024-cü ildə Qambiyada keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının zirvə görüşündə 57 dövlətin yekun sənədində, Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına dəstək ifadə olunması və Ermənistanın müsəlman irsinə qarşı törətdiyi vandalizmin qınanması Azərbaycan diplomatiyasının uğuru kimi qiymətləndirilib.

Əziz Ələkbərov vurğulayıb ki, Qərbi Azərbaycan İcması həqiqətlərin beynəlxalq müstəviyə çıxarılması və qaçqın soydaşlarımızın qayıdış hüququnun beynəlxalq miqyasda tanınması istiqamətində fəaliyyətini genişləndirməkdə qərarlıdır.

Tədbirdə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov, Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın sədri Ramid Namazov, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini...

Bax səh. 4





Bax səh. 4

## YAP İdarə Heyətinin iclası keçirilib

## ÜDM-də kreativ sənayenin payı artır

Bax səh. 5

## Cəbrayıla 6-cı köç...

Bax səh. 4

## 1014 gün...

Bax səh. 6

## Dekabrın 10-da...

Ermənistan 30 il ərzində işğal altında saxladığı Azərbaycan ərazilərində vandalizm aktı törədib, bütün yaşayış məntəqələri, sosial-iqtisadi infrastruktur, tarixi, dini, mədəni abidələr, dövlət obyektləri tamamilə məhv edilib. Eləcə də həmin ərazilərin flora və faunasına, ekologiyasına ciddi ziyan vurulub. Yüzlərlə kənd və qəsəbələr tamamilə yerlə-yeksan olunub. Yəni ermənilər işğal altında saxladığı ərazilərdə, demək olar ki, bütün həyatı məhv edib. Hansı ki, bu, ən böyük cinayətlərdən biridir. Bundan başqa, mülki insanların kütləvi qətli, onların əsir və girov götürülməsi, 4 minə yaxın insanın taleyi haqqında heç bir məlumatın verilməməsi müharibə cinayətləri sırasındadır.

Eləcə də işğal dövründə təxminə 60 min hektar meşə fondu məhv edilib. Həmin torpaqlarda dövlət təbiət qoruqları və yasaqlıqları dağıdılıb, meşələr qırılıb və satılıb, torpaqlarımız qanunsuz yollarla istismar edilib. Xatırladaq ki, bu ərazilərin böyük hissəsini Ermənistanın kriminal rejimin başçıları öz mənafeləri naminə istifadə edirdilər. Son 30 ildə itirilmiş gəlir, ekologiyamıza vurulan ziyan da hesablanır. Təbiətə dəymiş ziyan Ermənistanın növbəti ekoloji terroru kimi qeydiyyata alınır. Məlum olduğu kimi, Azərbaycanın işğal altındakı ərazilərində təbii sərvətlərin qanunsuz istismarına xarici şirkətlər də cəlb edilib. Azərbaycan Ermənistanın bu cinayətləri ilə bağlı beynəlxalq məhkəmələrə müraciət edir.

Yeri gəlmişkən, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva jurnalistlərə açıqlamasında deyib ki, Ermənistanın Qarabağda işğal dövründə törətdiyi müharibə cinayətləri barədə 10 dekabr Ümumdünya İnsan Hüquqları Günündə yeni hesabat təqdim ediləcək. O, həmin tarixdə yeni hesabatla bağlı mətbuata geniş məlumat veriləcəyini qeyd edib.

S.Əliyeva noyabrın 24-də Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının...

Bax səh. 3



## Gürcüstanda vətəndaş müharibəsi planı...

Bax səh. 5



## Polşa Ukraynadan "nə" istəyir?

Bax səh. 7



## Suriya müharibəsində növbəti mərhələ

Bax səh. 6

# Bir güllə atılmadan...

## Laçın rayonunun işğaldan azad edilməsindən dörd il ötür





Dörd il bundan əvvəl - 2020-ci il dekabrın 1-də Azərbaycanın dilbər guşələrindən olan Laçın rayonu işğaldan azad olunub. Prezident İlham Əliyev 2024-cü il 1 dekabr tarixində Laçının Ermənistan işğalından azad edilməsinin dördüncü ildönümü münasibətilə paylaşım edib. Paylaşımda qeyd olunub: “Zəfər tariximiz - Laçının Ermənistan işğalından azad edilməsindən dörd il ötür”.

Düşmənin işğal planında Ermənistanla Azərbaycanın müəyyən sayda erməni əhalinin yaşadığı keçmiş Dağlıq Qarabağ bölgəsi arasında coğrafi bağlantını təmin etmək əsas məqsədlərdən biri kimi nəzərdə tutulmuşdu. 1992-ci ilin mayında Laçının,1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi ilə düşmən öz istəyinə çatdı. Laçının və Kəlbəcərin itirilməsi ilə Ermənistanla keçmiş Dağlıq Qarabağ arasında birbaşa əlaqə təmin olundu. Ermənilər elə hesab edirdilər ki, bu torpaqlarda əbədi yaşayacaqlar.

Ancaq düşmənin arzusu gözündə qaldı. XXI əsrin müharibəsini aparan Ordumuz cəmi 44 gün ərzində düşməni tar-mar etdi. Ermənistan onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalamaq və üzərinə müəyyən öhdəliklər götürmək məcburiyyətində qaldı. Həmin öhdəliklərə uyğun olaraq Ağdam, Kəlbəcər və Laçın rayonları respublikamıza bir güllə atılmadan geri qaytarıldı.

Hələ 44 günlük Vətən müharibəsində noyabrın 9-da Azərbaycan Ordusu Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndlərini işğaldan azad etmişdi. Dörd il əvvəl, dekabrın 1-də isə xalqımız daha bir tarixi hadisənin sevincini və qürurunu yaşadı. Həmin tarixdə Prezident İlham Əliyev xalqa növbəti müraciətində Laçın rayonunun işğaldan azad olunduğunu bildirərək, Azərbaycan xalqını bu münasibətlə təbrik etdi. 2022-ci il avqustun 26-da Qarabağ Zəfərinin davamı olaraq Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü ki, bununla da ata-baba yurdları laçınlılara qaytarıldı. Bu, şanlı zəfər tariximizə daha bir hərbi və diplomatik qələbə kimi yazıldı. 2022-ci il sentyabrın 21-də Prezident, Ali Baş Komandan İlham Əliyev Laçın şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltdı.

Postmüharibə dövründə Laçında yaşayış evlərinin bərpası, müasir infrastruktur qurulması ilə bağlı çoxsaylı layihələr reallaşdırılıb. Laçın şəhərinin və kəndlərin məskunlaşdırılması da uğurla davam etdirilir. Qeyd edək ki, Laçına ilk köç 20 ailədən ibarət olmaqla 2023-cü ilin mayında reallaşıb.

***MÜBARİZ***

# “ASAN xidmət” təcrübəsi Qvineya-Bisau üçün maraqlıdır

## İlham Əliyev Qvineya-Bisau Respublikasının nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Qvineya-Bisau Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki icmalar naziri Karlos Pinto Pereiranın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Qvineya-Bisaunun ətraf mühit naziri Viriato Kassama da daxildir.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu yaxınlarda Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə görüşünü məmnunluqla xatırlayaraq əlaqələrimizin perspektivləri və əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından bu görüşün çox səmərəli olduğunu dedi və həmin görüşdən az müddət keçməsinə baxmayaraq Qvineya-Bisaudan nazirlər səviyyəsində nümayəndə heyətinin ölkəmizə səfərini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev iqtisadiyyat, o cümlədən ticarət və investisiya sahələrində əməkdaşlığın qurulmasının siyasi əlaqələrin də möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu dedi.



Xoş sözlərə görə minnətdarlığını bildirən Karlos Pinto Pereira Qvineya-Bisau Prezidentinin Azərbaycanla ikitərəfli münasibətlərin möhkəmlənməsi istəyini ifadə edərək, rəhbəri olduğu nümayəndə heyətinin ölkəmizə bu məqsədlə gəldiyini vurğuladı.

Söhbət zamanı təhsil sahəsində əməkdaşlığa toxunuldu, Azərbaycan tərəfindən ölkəmizin ali təhsil müəssisələrində Qvineya-Bisaudan olan tələbələrə xüsusilə mühəndislik, neft-mühəndisliyi və digər sahələrdə təhsil təqaüdlərinin ayrılması məsələsi qeyd edildi. Hələ sovetlər dövründə Qvineya-Bisaudan olan çoxlu sayda tələbənin müxtəlif sahələr üzrə Azərbaycanda təhsil aldıqları məmnunluqla xatırlandı, hazırda həmin şəxslərin Qvineya-Bisau Hökumətində təmsil olunduqları bildirildi, həmçinin bugünkü nümayəndə heyətinin tərkibində olan nazirlərin və digər rəhbər şəxslərin də vaxtilə Azərbaycanda təhsil aldıqları vurğulandı.

Görüşdə neft və mədənçilik sahəsində əməkdaşlıq qeyd edildi, Azərbaycanın bu sahədə təcrübəsini bölüşməsi və geoloji kəşfiyyat işlərinin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Ölkələrimiz arasında diplomatik məsləhətləşmələr mexanizminin inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın və qarşılıqlı səfərlərin intensivləşdirilməsi məsələləri müzakirə olundu.

Azərbaycanın “ASAN xidmət” təcrübəsinin Qvineya-Bisau üçün maraqlı olduğu qeyd edildi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın dövlət orqanları və özəl qurumları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin vahid məkanda təmin edilməsi təcrübəsi olan “ASAN xidmət” BMT tərəfindən də yüksək qiymətləndirilib. Azərbaycan Prezidenti bildirdi ki, ölkəmiz bu sahədə öz təcrübəsini Qvineya-Bisau ilə bölüşməyə hazırdır.

# Sülh üçün yeni imkanlar

Prezidentin Xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov amerikalı politoloq Qlen Hovarda müsahibəsində Azərbaycanın postmüharibə dövründə sülhyaratma prosesi ilə bağlı aydın baxışlarına və tutduğu qətiyyətli mövqeyə diqqət çəkib. “Eyes on Eurasia” podkastında amerikalı politoloq Qlen Hovardın qonağı olan Elçin Əmirbəyov, Azərbaycan və Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri barədə danışıb.

Qeyd edək ki, Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi olan E.Əmirbəyov iki ölkə arasında sülh sazişi ilə bağlı aparılan danışıqlarda iştirak edir. O, müsahibəsində danışıqlar prosesindəki son inkişaflara ətraflı şərh verib.

## Sülh prosesində inamyaradıcı addımlar

Uzunmüddətli münaqişə regionda sabitliyə, təhlükəsizliyə ciddi təhdidlər yaradıb. Yeni reallıqlar şəraitində isə davamlı sülhün təmin edilməsi üçün əlverişli zəmin formalaşıb və bu fürsətdən istifadə olunmalıdır. Hər şeyi etmək lazımdır ki, Cənubi Qafqaz müharibə və qarşıdurmalar səhnəsi deyil, barışıq, sülh və əməkdaşlıq çoğrafiyası olsun. Bu baxımdan son vaxtlar Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesində müəyyən müsbət dinamikanın müşahidə edilməsi nikbinlik üçün əsas yaradır. Qeyd edək ki, iki ölkə arasında imzalanması nəzərdə tutulan sülh sazişinin müddəalarının böyük hissəsi razılaşdırılıb, digər bəndlər üzrə də danışıqlar davam etdirilir. Artıq iki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiya olunması prosesinə start verilib. Eyni zamanda, Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə imzalanıb.

Bu müsbət dinamikanı saxlamaq və daha da inkişaf etdirmək lazımdır. Podkastda qeyd edilib ki, son aylarda Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində mühüm inam yaradıcı addımlar atılıb. Prezident İlham Əliyev danışıqların real nəticələr verdiyini vurğulayıb. Bildirildiyi kimi, bu addımlar Cənubi Qafqazda uzunmüddətli sabitlik və sülh üçün yeni perspektivlər açır. Qlen Hovard qeyd edir ki, hər iki ölkə regionda qarşılıqlı faydalı əməkdaşlıq üçün ciddi addımlar atmağa çalışır. E. Əmirbəyovun çıxışında qeyd olunur ki, əsas prioritet məsələlərdən biri ərazi bütövlüyünün qarşılıqlı tanınması və uzunmüddətli sülhün təmin edilməsidir. O vurğulayıb ki, hər iki tərəfin səyləri Cənubi Qafqazda iqtisadi inteqrasiyanı gücləndirə və regional sabitliyi möhkəmləndirə bilər.



## Azərbaycanın konstruktiv mövqeyi

Azərbaycan müharibənin qalib tərəfi olmasına rəğmən, heç bir ilkin şərt irəli sürmədən müharibə səhifəsini birdəfəlik bağlamaq və gələcəyə baxmaq əzmi nümayiş etdirir. Tənzimləmə prosesində sülh təşəbbüslərini ilk olaraq məhz qalib Azərbaycanın irəli sürməsi bunun əyani təsdiqidir.

Podkastda Azərbaycanın Ermənistanla münasibətləri normallaşdırmaq üçün uzun bir yol qət etdiyi vurğulanıb. E.Əmirbəyov bu prosesin tarixi aspektlərinə də toxunub və Azərbaycanın münaqişənin həlli üçün konstruktiv mövqe sərgilədiyini qeyd edib. O bildirib ki, Azərbaycan tərəfi prosesin müsbət nəticələnməsi üçün beynəlxalq ictimaiyyətin obyektiv dəstəyinə ümid edir.

## ABŞ-nin prosesdə rolu

Böyük güc mərkəzi olaraq ABŞ Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesinə müsbət təsir göstərə bilər. Xüsusilə də bu ölkədə noyabrın əvvəlində baş tutmuş prezident seçkilərindən sonra gələn ilin yanvarından fəaliyyətə başlayacaq Tramp administrasiyasının məsələyə daha həssas yanaşacağına böyük ümidlər var.

Elçin Əmirbəyov ABŞ-nin yeni administrasiyasının gələcəkdə bu prosesdə hansı rolu oynaya biləcəyini də şərh edib. Podkastda qeyd edilib ki, Prezident Trampın Prezident İlham Əliyevlə telefon danışığı regionun strateji əhəmiyyətinə diqqəti bir daha artırıb. Azərbaycan Xəzər regionunda mühüm rol oynayır və bu rolun yeni administrasiya tərəfindən dəstəklənməsi gözlənilir.

## Bütün region üçün vacib məsələ

Otuz il ərzində Ermənistanın işğalçılıq siyasətindən yalnız Azərbaycan əziyyət çəkməyib. İşğal və müharibənin mənfi nəticələri bütün Cənubi Qafqaz coğrafiyasında hiss olunub.

O cümlədən Azərbaycanla Ermənistan arasında sülhün təmin edilməsi də regionun bütün dövlətlərinin mənafeyinə uyğundur. Podkastda sonda qeyd edilib ki, Azərbaycan-Ermənistan sülh sazişi yalnız iki ölkənin deyil, bütün regionun gələcək inkişafı üçün həlledici əhəmiyyət daşıyır. Danışıqların yekunlaşması üçün tərəflərin səyləri davam edir və bu prosesin nəticələri diqqətlə izlənilir.

Bütövlükdə, bəhs olunan müsahibə Azərbaycanın sülh prosesi ilə bağlı mövqeyini daha aydın göstərməklə yanaşı, Cənubi Qafqazın gələcəyi üçün nikbinlik yaradır.

***Mübariz FEYİZLİ***

# Dekabrın 10-da...

## Ombudsman Ermənistanın müharibə cinayətləri haqqında yeni hesabat təqdim edəcək

Ermənistan 30 il ərzində işğal altında saxladığı Azərbaycan ərazilərində vandalizm aktı törədib, bütün yaşayış məntəqələri, sosial-iqtisadi infrastruktur, tarixi, dini, mədəni abidələr, dövlət obyektləri tamamilə məhv edilib. Eləcə də həmin ərazilərin flora və faunasına, ekologiyasına ciddi ziyan vurulub. Yüzlərlə kənd və qəsəbələr tamamilə yerlə-yeksan olunub. Yəni ermənilər işğal altında saxladığı ərazilərdə, demək olar ki, bütün həyatı məhv edib. Hansı ki, bu, ən böyük cinayətlərdən biridir. Bundan başqa, mülki insanların kütləvi qətli, onların əsir və girov götürülməsi, 4 minə yaxın insanın taleyi haqqında heç bir məlumatın verilməməsi müharibə cinayətləri sırasındadır.

### Ermənistan işğal dövründə ekoloji terror törədib

Eləcə də işğal dövründə təxminə 60 min hektar meşə fondu məhv edilib. Həmin torpaqlarda dövlət təbiət qoruqları və yasaqlıqları dağıdılıb, meşələr qırılıb və satılıb, torpaqlarımız qanunsuz yollarla istismar edilib. Xatırladaq ki, bu ərazilərin böyük hissəsini Ermənistanın kriminal rejimin başçıları öz mənafeləri naminə istifadə edirdilər. Son 30 ildə itirilmiş gəlir, ekologiyamıza vurulan ziyan da hesablanır. Təbiətə dəymiş ziyan Ermənistanın növbəti ekoloji terroru kimi qeydiyyata alınır. Məlum olduğu kimi, Azərbaycanın işğal altındakı ərazilərində təbii sərvətlərin qanunsuz istismarına xarici şirkətlər də cəlb edilib. Azərbaycan Ermənistanın bu cinayətləri ilə bağlı beynəlxalq məhkəmələrə müraciət edir.

Yeri gəlmişkən, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva jurnalistlərə açıqlamasında deyib ki, Ermənistanın Qarabağda işğal dövründə törətdiyi müharibə cinayətləri barədə 10 dekabr Ümumdünya İnsan Hüquqları Günündə yeni hesabat təqdim ediləcək. O, həmin tarixdə yeni hesabatla bağlı mətbuata geniş məlumat veriləcəyini qeyd edib.



### Erməni cinayətləri beynəlxalq müstəvidə ifşa olunur

S.Əliyeva noyabrın 24-də Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının (İƏT MDİHK) 24-cü sessiyasındakı çıxışında da bu mövzuya diqqət çəkdiyini xatırladıb: “Bizim bütün tədbirlərimizdə əsas mövzu əlbəttə ki, Qarabağdır. İƏT yanındakı Müstəqil Daimi İnsan Hüquqları Komissiyası da bu mövzuda Azərbaycana yaxından dəstək olur. İƏT tərəfindən Xocalı soyqırımı genosid aktı kimi qəbul edilib, Bərdənin ermənilər tərəfindən bombalanmasına kəskin münasibət bildirilib, mütəmadi olaraq müxtəlif qətnamələr, qərarlar qəbul edilib. Birgə hesabatımız da təqdim olunacaq”.

Qeyd edək ki, sözügedən tədbirdə ekoloji cinayətlərin insanların sağlamlığına təsirindən danışan Səbinə Əliyeva Ermənistanın ərazilərimizdə törətdiyi ekoloji cinayətlərdən bəhs edib. Ombudsman işğal müddətində Ermənistan tərəfindən torpaqlarımızda basdırılmış minaların mülki əhalinin həyat və sağlamlığı üçün ciddi təhlükə törətdiyini, onların öz doğma yurdlarına təhlükəsiz qayıdışına maneə yaratdığını, Birinci Qarabağ müharibəsindən bu günə qədər 3400-dən çox şəxsin mina qurbanı olduğunu diqqətə çatdırıb.

**“Bizim bütün tədbirlərimizdə əsas mövzu əlbəttə ki, Qarabağdır. İƏT yanındakı Müstəqil Daimi İnsan Hüquqları Komissiyası da bu mövzuda Azərbaycana yaxından dəstək olur. İƏT tərəfindən Xocalı soyqırımı genosid aktı kimi qəbul edilib, Bərdənin ermənilər tərəfindən bombalanmasına kəskin münasibət bildirilib, mütəmadi olaraq müxtəlif qətnamələr, qərarlar qəbul edilib. Birgə hesabatımız da təqdim olunacaq”**

Ombudsman otuz ilə yaxın işğal müddətində ərazilərimizdə müxtəlif nadir bitki və heyvan növlərinin məhv edildiyini, su hövzələrinin zərərli maddələrlə çirkləndirildiyini bildirib.

Ümumiyyətlə, bütün bu əməllərə görə Ermənistan Azərbaycana milyardlarla dollar təzminat ödəməlidir. Qeyd etdiyimiz kimi, Ermənistanın törətdiyi bu əməllər

### İşğalçı ölkə milyardlarla dollar təzminat ödəməlidir

müharibə cinayətləridir. Ermənistan münaqişə zonasından uzaqda yerləşən yaşayış məntəqələrimizi artilleriya atəşinə tutmaqla müharibə cinayətlərini İkinci Qarabağ savaşı zamanı da davam etdirib. Rəsmi İrəvan bütün bu kimi müharibə cinayətlərinə görə məsuliyyət daşıyır.

Beynəlxalq ekspertlərin iştirakı ilə bütün dağıntıların, maddi və mənəvi ziyanın hesablanması Ermənistanın ədalət mühakiməsindən qaça bilməyəcəyini göstərir. Beynəlxalq məhkəmələrdə işğalçı ölkə böyük məbləğdə təzminat ödənilməsi tələbi ilə üz-üzə qalacaq. Bütün bunlar rəsmi İrəvanın törətdiyi əməllərinə görə cavab verəcəyinin mesajıdır.

**Beynəlxalq ekspertlərin iştirakı ilə bütün dağıntıların, maddi və mənəvi ziyanın hesablanması Ermənistanın ədalət mühakiməsindən qaça bilməyəcəyini göstərir. Beynəlxalq məhkəmələrdə işğalçı ölkə böyük məbləğdə təzminat ödənilməsi tələbi ilə üz-üzə qalacaq**

*Nardar BAYRAMLI*

# Böyük perspektivə malik əməkdaşlıq

Ölkə daxilində təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə çoxsaylı layihələr reallaşdıran Heydər Əliyev Fondu beynəlxalq əlaqələrini də davamlı olaraq genişləndirir. Fond bu yolla bir tərəfdən Azərbaycanın dövlət siyasətinə sanballı töhfələr verir, digər tərəfdən isə ölkəmizin həqiqətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında, milli mədəniyyətimizin dünyada təbliğində mühüm rol oynayır. Elə bu günlərdə Fondun vitse-prezidenti Leyla Əliyeva Ər-Riyadda Səudiyyə Ərəbistanının Kral Salman Humanitar Yardım və Qayğı Mərkəzinin rəhbəri Abdullah Ər-Rabiə ilə görüşüb.

### Yüksək səviyyədə olan ikitərəfli münasibətlər

Görüşdə Azərbaycanla Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğuna xüsusi diqqət çəkilib və əməkdaşlığın bütün sahələrdə inkişaf etdirilməsinin əhəmiyyəti qeyd edilib.



Səudiyyə Ərəbistanı Azərbaycana dost olan ölkələr sırasında yer alır. Tarixi mənəvi-dini bağlılıq iki ölkənin yaxınlaşmasında mühüm rol oynayan amil qismində çıxış edir. Səudiyyə Ərəbistanı Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biridir. Hər iki ölkənin dövlət başçılarının səyi nəticəsində əlaqələrimiz daha da inkişaf edir. Bir sıra beynəlxalq təşkilatlar çərçivəsində sıx əlaqələr quran Azərbaycan və Səudiyyə Ərəbistanı arasında iqtisadi, siyasi, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlıq yüksək səviyyədədir. Xüsusilə, ticarət sahəsindəki əlaqələr sürətlə genişlənir. Eyni zamanda, bu ölkə Qarabağda bərpa-quruculuq, minatəmizləmə işlərinə öz töhfəsini verir. Səudiyyə Ərəbistanı Azərbaycanın ərazi bütövlüyünə davamlı dəstək verib və buna görə Ermənistanla əlaqələr qurmayıb.

İki ölkə arasında yaşıl enerji sahəsində əməkdaşlığın böyük perspektivləri var. Bir qədər bundan əvvəl respublikamızın böyük uğurla ev sahibliyi etdiyi COP29 çərçivəsində “Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Özbəkistan Respublikası və Səudiyyə Ərəbistanı Krallığının energetika nazirlikləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində İcra Proqramı” imzalanıb. İmzalanan digər sənədlər “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Energetika Nazirliyi arasında Enerji Əməkdaşlığı üzrə Yol Xəritəsi” və “Səudiyyə Elektrik Şirkəti (SEC) ilə “Azərenerji” ASC arasında elektrik enerjisi sahəsində bilik və təcrübə mübadiləsi üzrə Anlaşma Memorandumu”dur.

Görüşdə Kral Salman Mərkəzi ilə Heydər Əliyev Fondu arasında əməkdaşlığın inkişafı, eləcə də gələcək birgə layihələr istiqamətində müzakirələr aparılıb. Qeyd edək ki, Səudiyyə Ərəbistanı İslam dünyasının önəmli dövlətlərindən biridir. O cümlədən müstəqil Azərbaycanın çoxvektorlu xarici siyasət kursunda geniş coğrafiyanı əhatə edən İslam ölkələri ilə əməkdaşlığın genişləndirilməsi xətti xüsusi yer tutur.

### İslam həmrəyliyinə verilən davamlı töhfələr

Ölkəmiz davamlı olaraq dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə öz töhfələrini verir.

Heydər Əliyev Fondu da bu istiqamətdə daim yeni təşəbbüslər irəli sürür. Qeyd etmək yerinə düşər ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə İslam dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) arasında əməkdaşlıq əlaqələri getdikcə dərinləşir. Azərbaycan 1991-ci ildən bu gün sıralarında 50-dən çox dövləti birləşdirən ICESCO-nun üzvüdür. Əməkdaşlıq əlaqələrinin genişlənməsinə böyük önəm verən respublikamız indiyədək qurumun bir sıra mühüm tədbirlərinə uğurla ev sahibliyi edib. Bu sırada müxtəlif illərdə Bakıda keçirilmiş “Gənclər sivilizasiyaların alyansı naminə” mövzusunda beynəlxalq konfransı (1-2 noyabr 2007-ci il), “Mədəniyyətlərarası dialoqda qadınların rolu” mövzusunda forumu (10-11 iyun 2008-ci il), İslam ölkələri Elm və təhsil nazirlərinin VI Konfransını (6-7 oktyabr 2008-ci il), “Bakı - İslam mədəniyyətinin paytaxtı - 2009” Mədəniyyət ilinin açılış mərasimini (18 fevral 2009-cu il), İslam ölkələri Mədəniyyət nazirlərinin VI Konfransını (13-15 oktyabr 2009-cu il), Dünya dini liderlərinin Bakı sammitini (26-27 aprel 2010) və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarını xüsusilə qeyd edə bilərik. Cari ilin oktyabr ayında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ICESCO-nun Mərakeşin Rabat şəhərində yerləşən qərargahında olub. Oktyabrın 14-də ICESCO -nun baş direktoru Salim bin Məhəmməd əl-Maliklə görüşdə Heydər Əliyev Fondunun fəaliyyəti, Azərbaycan- ICESCO əməkdaşlığı, o cümlədən Fond ilə birgə layihələr müzakirə edilib. Bütövlükdə, gələcək əməkdaşlığın perspektivləri kifayət qədər genişdir. 2024-cü il 11 may tarixində Şuşada Heydər Əliyev Fondu və ICESCO arasında əməkdaşlığa dair memorandum imzalanıb. Memorandum mədəniyyət, elm və təhsil, yeni texnologiyaların inkişafı sahələrində təcrübə mübadiləsinin aparılmasını, eyni zamanda, birgə layihələrin icra olunmasını nəzərdə tutur.

*Mübariz ABDULLAYEV*

# Afrika xalqlarının hüquqları BMT müstəvisində...

## Bakı Təşəbbüs Qrupu beynəlxalq tədbirdə təmsil olunacaq

*N.BAYRAMLI*

Özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan bəzi Qərb ölkələrinin, xüsusilə də Fransanın əslində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Bu müstəmləkəçilik siyasətindən əziyyət




çəkənlər arasında Afrika xalqları da çoxluq təşkil edir. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlayır. Təəssüf ki, beynəlxalq ictimaiyyət Qərb ölkələrinin bu siyasətinə qarşı adekvat reaksiya vermir.

Lakin Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının ötən il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb. Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Afrika, Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı fransız müstəmləkələrinə həsr olunmuş həmin tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verib. Tədbirdə XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrinin nümayəndələri ədalət və azadlıq uğrunda apardıqları mübarizədə öz həmrəylik şəbəkələrini strukturlaşdırmaq məqsədilə Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəldilər.

Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu ölkəmizdə, eləcə də xaricdə, o cümlədən BMT müstəvisində həmin xalqların hüquqları ilə bağlı iyirmidən çox beynəlxalq konfrans təşkil edib. Yeri gəlmişkən, dekabrın 2-dən 6-dək BMT-nin Nyu-Yorkdakı baş qərargahında Afrika əsilli xalqların hüquqları üzrə ekspertlər işçi qrupunun 35-ci sessiyası keçiriləcək. Bu tədbir Afrika əsilli xalqların hüquqlarının müdafiəsi və tarixi ədalətsizliklərin nəticələrinin aradan qaldırılması sahəsində mühüm beynəlxalq platformalardan biri kimi tanınır.

Bakı Təşəbbüs Qrupundan verilən məlumata görə, sessiya çərçivəsində Bonayre İnsan Hüquqları Təşkilatı, Baham adalarının BMT-dəki Daimi Nümayəndəliyi və BMT-nin Afrika əsilli xalqların hüquqları üzrə ekspertlər işçi qrupu tərəfindən “Ədalətin bərpası və müstəmləkəçiliyin aradan qaldırılması: müstəmləkəyə məruz qalmış ərazilərdə Afrika əsilli xalqların hüquqlarının müdafiəsi” mövzusunda yan tədbir keçiriləcək. Bu mötəbər beynəlxalq tədbirdə Bakı Təşəbbüs Qrupunun (BTQ) icraçı direktoru Abbas Abbasov iştirak edəcək. BTQ, müstəmləkəçilik və onun nəticələrinin aradan qaldırılması sahəsində apardığı layihələri təqdim edərək müstəmləkə altındakı xalqların hüquqlarının bərpasına yönəlmiş təşəbbüsləri müzakirə edəcək.

**BTQ, müstəmləkəçilik və onun nəticələrinin aradan qaldırılması sahəsində apardığı layihələri təqdim edərək müstəmləkə altındakı xalqların hüquqlarının bərpasına yönəlmiş təşəbbüsləri müzakirə edəcək**

Sessiya və yan tədbir Afrika əsilli xalqların tarixən üzləşdiyi ədalətsizliklərə, sosial-iqtisadi bərabərsizliklərə və insan hüquqları sahəsindəki çağırışlara diqqət yetirəcək. Tədbirin əsas məqsədi bu xalqların hüquqlarının bərpasına nail olmaq, beynəlxalq hüquq çərçivəsində maneələri aradan qaldırmaq və uzunmüddətli həll yolları üçün tövsiyələr irəli sürməkdir.

BTQ sessiyada iştirak etməklə yanaşı, öz fəaliyyətlərini, əldə etdiyi nailiyyətlər və qarşıdakı prioritetlərini təqdim edəcək. Təşkilat, müstəmləkəçilikdən əziyyət çəkən xalqların hüquqlarının beynəlxalq səviyyədə tanınmasına, tarixi ədalətsizliklərin aradan qaldırılmasına və bu xalqların azadlıq mübarizəsinə dəstək vermək məqsədilə fəaliyyətini davam etdirir.

**BTQ sessiyada iştirak etməklə yanaşı, öz fəaliyyətlərini, əldə etdiyi nailiyyətlər və qarşıdakı prioritetlərini təqdim edəcək. Təşkilat, müstəmləkəçilikdən əziyyət çəkən xalqların hüquqlarının beynəlxalq səviyyədə tanınmasına, tarixi ədalətsizliklərin aradan qaldırılmasına və bu xalqların azadlıq mübarizəsinə dəstək vermək məqsədilə fəaliyyətini davam etdirir**

Bakı Təşəbbüs Qrupu Bonayre xalqının müstəmləkəçilikdən azadlığı uğrundakı mübarizəsinə mühüm töhfələr verib. Təşkilat mədəni irsin qorunması, insan hüquqlarının müdafiəsi və beynəlxalq hüquq çərçivəsində konkret həllərin işlənib-hazırlanması istiqamətində əməkdaşlıq edir. Bu fəaliyyətlərin zirvə nöqtəsi olaraq, 2024-cü il avqustun 22-də Bakıda BTQ-nin təşkilatçılığı ilə “Bonayre adasının Bakıdan keçən BMT Baş Assambleyasındakı öz müqəddəratını təyinetmə yolu” mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbirdə Bonayre xalqının azadlıq mübarizəsini təmsil edən nümayəndələrlə yanaşı, Beliz, Sent-Vinsent və Qrenadin, Surinam, Sent Lüsiya, Böyük Britaniya, Meksika və Niderlanddan olan yüksəksəviyyəli hökumət rəsmiləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər və alimlər iştirak ediblər. Konfransda Bonayre xalqının müstəqilliyinə nail olmaq üçün beynəlxalq hüquqi mexanizmlər və bu istiqamətdə BMT-nin Dekolonizasiya Edilməli Ərazilər Siyahısına yenidən daxil edilmək məqsədilə görülən işlər müzakirə olunub.

BTQ-nin belə təşəbbüslərdə iştirakı Azərbaycanın beynəlxalq səviyyədə dekolonizasiya proseslərindəki liderlik rolunu nümayiş etdirir. Bu, həm də ölkəmizin müstəmləkəçilikdən zərər çəkmiş xalqların hüquqlarının bərpasına verdiyi töhfələrin göstəricisidir. Beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən Bakı Təşəbbüs Qrupunun bu sahədəki fəaliyyəti, müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq və hüquq mübarizəsinə dəstək məqsədilə aparılan qlobal səylərin mərkəzində yer alır.

# YAP İdarə Heyətinin iclası keçirilib








Dekabrın 2-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov demokratik inkişaf yolunda əmin addımlarla irəliləyən Azərbaycanın daha bir mühüm ictimai-siyasi proses ərəfəsində olduğunu qeyd edib. “Məlum olduğu kimi, 2025-ci il yanvarın 29-da ölkəmizdə növbəti bələdiyyə seçkiləri keçiriləcək. Siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyası indiyədək bütün seçkilərə yüksək səviyyədə hazırlaşıb və inamlı qələbələrə imza atıb. Xalqın etimadını layiqincə doğruldan YAP növbəti bələdiyyə seçkilərinə də yeni reallıqlar və çağırışlar fonunda böyük qələbə əzmi ilə qatılır”, - deyən Tahir Budaqov bələdiyyə seçkilərinin keçiriləcəyi 118 seçki dairəsinin hər biri üzrə Yeni Azərbaycan Partiyasının öz namizədlərini irəli sürəcəyini diqqətə çatdırıb.

Daha sonra iclasın gündəliyində olan məsələlər haqqında məlumat verilib.

İclasda ilk olaraq “Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planı” müzakirə edilərək təsdiq olunub.

Sonra Yeni Azərbaycan Partiyasının 19 nəfərdən ibarət Mərkəzi Seçki Qərargahının yaradılması haqqında qərar qəbul olunub.

İdarə Heyətinin qərarı ilə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi, həmçinin səsvermə gününədək seçki komissiyalarının iclaslarını müşahidə edəcək şəxslər təyin edilib.

Daha sonra YAP Sədrinin müavini Əli Əhmədov, partiyanın İdarə Heyətinin üzvləri - Arif Rəhimzadə, Hikmət Məmmədov, Mübariz Qurbanlı və Aynur Sofiyeva çıxış edərək seçki kampaniyasının uğurla həyata keçirilməsi üçün qarşıda duran vəzifələrdən bəhs ediblər.

İclasa yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərinin də mütəşəkkil həyata keçirilməsi üçün partiyanın bütün resurslarının cəlb olunacağına əminliyini ifadə edib və bu prosesdə iştirak edəcək partiya üzvlərinə müvəffəqiyyətlər arzulayıb.

# “Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış”

## Milli Məclisdə bu mövzuda ictimai dinləmə keçirilib

*Nardar BAYRAMLI*

Dekabrın 2-də parlamentdə Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun təşkilatçılığı ilə “Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış” mövzusunda ictimai dinləmə keçirilib. Dinləməni giriş sözü ilə açan Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri və Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri Əziz Ələkbərov bildirib ki, Qərbi Azərbaycan İcmasının hazırladığı sənədlər qısa müddətdə beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də rəsmi sənədlər kimi təqdim edilib. Qurumun bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı, UNESCO ilə əməkdaşlığı genişlənib. 2024-cü ildə Qambiyada keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının zirvə görüşündə 57 dövlətin yekun sənədində, Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına dəstək ifadə olunması və Ermənistanın müsəlman irsinə qarşı törətdiyi vandalizmin qınanması Azərbaycan diplomatiyasının uğuru kimi qiymətləndirilib.



Əziz Ələkbərov vurğulayıb ki, Qərbi Azərbaycan İcması həqiqətlərin beynəlxalq müstəviyə çıxarılması və qaçqın soydaşlarımızın qayıdış hüququnun beynəlxalq miqyasda tanınması istiqamətində fəaliyyətini genişləndirməkdə qərarlıdır.

Tədbirdə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov, Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın sədri Ramid Namazov, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Qüdrət Həsənquliyev, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, deputatlar Azay Quliyev, Kamal Cəfərov, Ramil Həsən, Tənzilə Rüstəmxanlı, Rizvan Nəbiyev, Aydın Mirzəzadə, Səyyad Salahlı, Qaya Məmmədov və Məlahət İbrahimqızı çıxış ediblər.

Dinləmədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov “Deportasiyaya məruz qalmış qərbi azərbaycanlılarla bağlı statistik məlumatlar”, Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin rəisi Samir Becanov “Beynəlxalq praktikada qaçqınların geri qayıdışının təmini”, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva “Qərbi Azərbaycanda maddi-mədəni irsimiz”, Baş Prokurorluğun İstintaq İdarəsinin rəis müavini Qasım Məmmədov “Qərbi Azərbaycanda azərbaycanlılara qarşı cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi” və AMEA-nın Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri Cəbi Bəhramov “Qərbi Azərbaycan tarixinin öyrənilməsi və araşdırılması” mövzularında məruzələrlə çıxış ediblər.

Tədbirdə, həmçinin Avrasiya Universitetinin professoru Firudin Cəlilov, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin professoru Zahid Cəfərov çıxış edərək, soydaşlarımızın Azərbaycan xalqının tarixi torpaqlarına qayıdışının təmin edilməsinin hüquqi aspektləri barədə qeyd və təkliflərini irəli sürüblər.

Tədbirə yekun vuran Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri Əziz Ələkbərov Azərbaycan xalqının tarixi yaddaşının, Vətən sevgisinin güclü olduğunu vurğulayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə soydaşlarımızın Qərbi Azərbaycana qayıdışının təmin olunacağına inamını ifadə edib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”” istiqaməti üzrə hazırlanmışdır**

# Cəbrayıla 6-cı köç...

## Sakinlərin sayı 843 oldu

*Yeganə BAYRAMOVA*

İşğaldan azad olunmuş ərazilərimizdə irimiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsinin, keçmiş məcburi köçkünlərin yurdlarına qayıtmasının vaxtaşırı şahidi oluruq. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu işlər hərbi qələbənin ardınca iqtisadi və sosial canlanmanı təmin etmək məqsədi daşıyır. Azad olunmuş rayonlarımıza qayıdış prosesi uğurla davam edir.

**“Böyük qayıdış”ımız 2016-cı ildən başladı!**

1993-cü ildə işğal olunan Cəbrayılın Zəfər tariximizdə xüsusi yeri var. “Böyük qayıdış”ımız 2016-cı ilin Aprel döyüşlərində Cəbrayılın Cocuq Mərcanlı kəndinin azad olunması ilə başlayıb. İkinci Qarabağ müharibəsindəki ilk uğurlarımızdan biri məhz Cəbrayıl ilə bağlıdır. Döyüşlərin birinci həftəsində şəhərin azad olunması Vətən müharibəsinin mühüm hadisəsinə çevrildi. Cəbrayıl şəhəri azadlığına qovuşduqdan sonra məlum oldu ki, şəhərdən əsər-ələmət qalmayıb, bütün binalar yerlə yeksan edilib.

**İlk mərhələdə 36 ailə...**

İkinci Qarabağ müharibəsindən sonra yurda qayıdış sevincini yaşamaq Cəbrayıl sakinlərinə də nəsib oldu. “Böyük qayıdış” proqramına əsasən, yenidən qurulan Cəbrayıl şəhərinə ilk köç 2024-cü il sentyabrın 26-da baş tutmuşdu. İlk mərhələdə 36 ailə, 117 nəfər uzun illər həsrətini çəkdikləri doğma ocaqlarına qayıtdılar.

Qeyd edək ki, Cəbrayıla ikinci köç 28 sentyabr 2024-cü il tarixində oldu. Bu mərhələdə 41 ailə, 124 nəfər dədə-baba torpağına qovuşdu. Üçüncü köç 30 sentyabr (40 ailə, 123 nəfər), dördüncü köç 7 noyabr (30 ailə, 150 nəfər), beşinci köç 29 noyabr (40 ailə, 200 nəfər) tarixində baş tutub.

**Quruculuq işləri sürətlə davam edir**

İşğaldan azad olunan bütün ərazilər kimi, Cəbrayılda da bərpa-quruculuq işləri sürətlə davam edir. Cəbrayıl şəhərinin mərkəzində ümumi sahəsi 7,9 hektar olan yaşayış kompleksi salınıb. Altı kvartaldan ibarət kompleksin inşası sürətlə həyata keçirilir. Burada 4-5 mərtəbəli olmaqla, 33 yaşayış binası tikilir. Tam təmirli mənzillər mətbəx mebeli, su, qaz və elektrik sayğacları ilə təchiz edilir. Binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin olunur. Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə verilir.

Keçmiş məcburi köçkünlərin doğma yerlərinə qayıtması ilə yanaşı, bu bölgənin iqtisadi potensialından istifadə edilməsi, orada yaşayan əhalinin məşğulluğunun təmin olunması, həmçinin digər sosial problemlərin həlli də dövlətin diqqət mərkəzindədir. İşğaldan azad edilmiş torpaqlarımız zəngin “yaşıl enerji” istehsal etmək potensialına da malikdir. Tezliklə Cəbrayılda da Günəş enerjisi stansiyası tikiləcək.



Qarabağ və Şərqi Zəngəzurda nəhəng bərpa-quruculuq işləri davam edir. Qısa müddət ərzində bir çox layihə başa çatdırılıb. İndiyə qədər görülən işlər minlərlə vətəndaşımızın doğma yurdlarına qayıtmasına şərait yaradıb. Tezliklə bütün keçmiş məcburi köçkünlərin əzəli yurdlarına qovuşmasına şahid olacağıq.

**Daha 35 ailə Cəbrayıla yola salındı**

Ötən gün Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Cəbrayıl şəhərinə növbəti köç olub. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Cəbrayıl şəhərinə 34 ailə - 129 nəfər köçürülüb.

Xatırladaq ki, indiyədək Cəbrayıl şəhərində 221 ailənin, yəni 843 nəfərin daimi məskunlaşması təmin edilib.

Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

# ÜDM-də kreativ sənayenin payı artır

## Bakıda “Kreativ iqtisadiyyat: data modeli, ölçülməsi və əqli mülkiyyət” mövzusunda regional seminar keçirilir

*N.BAYRAMLI*






Dekabrın 2-də Əqli Mülkiyyət Agentliyinin və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) “Kreativ iqtisadiyyat: data modeli, ölçülməsi və əqli mülkiyyət” mövzusunda birgə regional seminarı öz işinə başlayıb. Azərbaycan ilə ÜƏMT arasında kreativ iqtisadiyyat sahəsində əməkdaşlığın davamı olan regional seminarda bu beynəlxalq təşkilatı təmsil edən nümayəndə heyəti, həmçinin Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstandan nümayəndələr iştirak edirlər.

Açılış mərasimində çıxış edən Agentliyin rəhbəri Kamran İmanov bildirib ki, regional seminar müəyyən mənada innovasiyadır, yeni yanaşma və yeni həllər yoludur. Bu seminar yaradıcılığı, ixtiraçılığı və özünüifadə etməyi davamlı iqtisadi artımın əsas drayveri kimi təsvir edir, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının yeni hazırlanan CEDM modelinin tətbiqi təklifini tətbiq etməyimizə dəstək göstərir.

K.İmanov diqqətə çatdırıb ki, CEDM - kreativ iqtisadiyyatın data (məlumat) modelidir. CEDM model empirik dataların toplanmasında, kreativ iqtisadiyyatın dəyərlənməsində çoxsahəli ölçü aləti rolunu oynayan və geniş faktorların nəzərə alınmasına imkan yaradan alətdir. Burada kreativ məhsul istehsalatı olan institusional mühit kreativ istehsalı tələb edən resurslar və kreativ sektorun iqtisadiyyata təsirini göstərən kreativ (yaradıcı) nəticələrdir. Bu cür yanaşma yenidir, daha dərin, mükəmməl aspektləri ilə yanaşı, sosial və mədəni aspektlərini də nəzərə alır və bu modeldə əqli mülkiyyətin rolu, xüsusən müəlliflik hüququnun əhəmiyyəti qabarıq şəkildə göstərilir.

ÜƏMT-nin departament direktorunun müavini, böyük menecer Dimiter Qançev çıxışında bildirib ki, bu gün əsas məsələlərdən biri iqtisadiyyatın şaxələndirilməsidir. Eyni zamanda, biz iqtisadi baxımdan qeyri-sabit dövrdə yaşayırıq. Digər tərəfdən, hər kəs əlində olan resursları optimallaşdırmağa çalışır. Bunlardan biri də yaradıcılıqdır, kreativlikdir.

ÜƏMT rəsmisi diqqətə çatdırıb ki, kreativlik özü-özlüyündə iqtisadi inkişaf yaratmır. Bunun üçün mühit olmalıdır. Həmçinin bir mexanizm olmalıdır ki, kiçik şirkətlər, böyük şirkətlər öz məhsullarını bazara çıxara bilsinlər. Əsas mexanizmlərdən biri də əqli mülkiyyət hüquqlarının qorunmasıdır. Bunun vasitəsilə yaradıcılıq məhsulları bazara çıxarıla bilər və bundan iqtisadi dəyər əldə edilə bilər. Bu səbəbdən müəllif hüquqlarının və əqli mülkiyyət hüquqlarının qorunması yaradıcı sənaye üçün olduqca vacibdir.

D.Qançev qeyd edib ki, ÜƏMT 20 il əvvəl kreativ sənayenin iqtisadiyyata töhfəsini ölçən metodologiya hazırlayıb. Bunun da əsası müəllif hüququnun qorunmasıdır. Bu, çox önəmli və aydın meyarlardan biridir. Bu metodologiyanı 65 ölkə, o cümlədən Azərbaycan qəbul edib.

Tədbirdə çıxış edən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov yaradıcı sənayenin dünyada sürətlə inkişaf edən sahələrdən biri olduğunu deyib. Onun sözlərinə görə, bu, həm rəqəmsallaşma, həm də dövlətlərin diqqətinin artırılması və sərmayə qoyulması ilə bağlıdır: “Yaradıcı sahənin inkişafı əqli mülkiyyət məsələlərinin əhəmiyyətini, aktuallığını da artırır. Bugünkü rəqabətli biznes mühitində əqli mülkiyyət bütün şirkətlər üçün dəyərli bir aktivə çevrilir. Kiçik və orta bizneslər üçün onların əqli mülkiyyət hüquqlarını başa düşmələri və qorumaları innovasiyaları təşviq etmək, bazarda mövcud olmaq və rəqabət üstünlüklərini qorumaq üçün çox vacibdir”.

Açılış mərasimində, həmçinin Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu, AZPROMO-nun rəhbəri Yusif Abdullayev və başqaları çıxış edərək tədbirin mövzusunun aktuallığını qeyd ediblər, regional seminarın işinə uğurlar arzulayıblar.

Daha sonra tədbirdə Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov “Əqli Mülkiyyətin yenidən dərk edilməsi və kreativ iqtisadiyyat” mövzusunda məruzəsi dinlənilib. Agentliyin rəhbəri bildirib ki, əqli mülkiyyətin müasir konteksti nəzərəçarpan dərəcədə dəyişib, onun kökündə təkcə hüquqi məna deyil, iqtisadi və sosiomədəni məna da başa düşülür. Əqli mülkiyyətin müasir kateqoriyasında fiziki və hüquqi şəxslərin əqli fəaliyyət nəticələrinə (ƏFN) verilən yalnız müstəsna hüquqlar deyil, bilavasitə ƏFN də nəzərə alınmalıdır. K.İmranov diqqətə çatdırıb ki, Əqli Mülkiyyət Agentliyində aparılan təhlil və hesablamalara görə, Azərbaycanda ÜDM-də kreativ sənayenin payı getdikcə artmaqdadır. Bu göstərici, 2024-cü ilin 1 yanvarına olan vəziyyətə görə 5,2 faizə çatıb və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir.

Daha sonra ÜƏMT-nin departament direktorunun müavini, böyük menecer Dimiter Qançev “Kreativ iqtisadiyyatın mövcud ölçmə modellərinə ümumi baxış” mövzusunda məruzəsi ilə çıxış edib.

İki gün davam edəcək seminarda ÜƏMT-nin peşəkar mütəxəssisləri kreativ iqtisadiyyatın aktual məsələlərinə dair məruzələrlə çıxış edəcək, əqli mülkiyyətin, o cümlədən müəlliflik hüquqlarının kreativ iqtisadiyyatın inkişafında payı barədə müzakirələr aparılacaq. Həmçinin kreativ iqtisadiyyatın inkişafında Azərbaycan təcrübəsi və bu sahədə ölkəmizdə həyata keçirilən layihələr barədə tədbir iştirakçıları qarşısında geniş təqdimat olacaq.

> CEDM - kreativ iqtisadiyyatın data (məlumat) modelidir. CEDM model empirik dataların toplanmasında, kreativ iqtisadiyyatın dəyərlənməsində çoxsahəli ölçü aləti rolunu oynayan və geniş faktorların nəzərə almasına imkan yaradan alətdir. Burada kreativ məhsul istehsalatı olan institusional mühit kreativ istehsalı tələb edən resurslar və kreativ sektorun iqtisadiyyata təsirini göstərən kreativ (yaradıcı) nəticələrdir. Bu cür yanaşma yenidir, daha dərin, mükəmməl aspektləri ilə yanaşı, sosial və mədəni aspektlərini də nəzərə alır və bu modeldə əqli mülkiyyətin rolu, xüsusən müəlliflik hüququnun əhəmiyyəti qabarıq şəkildə göstərilir

# Qərb Cənubi Qafqazı “qarışdırır”...

## Ermənistana hərbi kəşfiyyat materialları ötürülür, yeni eskalasiya üçün şərait yaradılır

Avropanın həm iqtisadi, həm də siyasi məngənədə sıxıldığı bir zamanda “köhnə qitə” son kartlarını oynamağa çalışır. Mərkəzi Avropada artan gərginliklərin bölgə üçün pozitiv gələcək vəd etməməsi fonunda, Qərb digər regionlarda da destabillik yaratmağa niyyətlənib. Fərqli “əsaslarla” və yollarla aparılan bu “kurs” Qərbin nəzarətindən kənarda baş verən və müstəqil siyasət yürüdən ölkələrin yeni iqtisadi nizam planına əsaslanan hadisələrə müdaxiləni hədəfləyir. Məsələn Cənubi Qafqaz üzərində konkretləşdirsək, Azərbaycanın 2020-ci il Vətən müharibəsindən sonra mühüm bir coğrafiya üçün yaratdığı iqtisadi-ticari imkanlar Qərbə, xüsusilə də Avropaya görə qəbulolunmazdır. Bu, müasir dövrdə yeni siyasi aktorların formalaşması ilə yanaşı, prosesi iqtisadi güc mərkəzinin dəyişməsinə qədər irəlilədə bilər. TDT üzvü ölkələr də daxil olmaqla sözügedən regionun iqtisadi potensialı yeni ticari düzənin formalaşmasında əsaslı rol oynamaq imkanındadır - Qərb üçün isə bu, qəbuledilməzdir.

Bunun qarşısını almaq üçün isə destruktiv alətlərdən maksimum istifadə olunur. Qeyd edilən iqtisadi-ticari “aortanın” ən mühüm stansiyalarından biri sayılan Cənubi Qafqazda təhlükəsizlik arxitekturasına zərər vurmaq üçün bütün yollar “sınaqdan” keçirilir. Hətta Ermənistanın əli ilə yeni müharibələrin başladılması belə Qərb üçün istisna plan sayılmır - Avropanın bəzi addımlarında bu faktor özünü açıq şəkildə göstərir.

### Alət Ermənistan, hədəf sülhdür...

Məsələn, post-müharibə dövründə Fransanın və onun “partnyorlarının” Ermənistana aktiv silah transfer etməsi bu mənada diqqətçəkicidir. Son illərdə Fransa və Hindistan İrəvana kağız üzərində milyonlarla dollar dəyərində, əsl reallıqda isə demək olar ki, qarşılıqsız silah tədarük etməkdədir. Heç kim iddia edə bilməz ki, Fransa və ya Hindistan Ermənistana bu silahları yalnız və yalnız “sevgi” və “dostluq” səbəbilə yollayır - məsələnin alt məğzi aydındır: Həm Fransa, həm də onun “müttəfiqi” anlayır ki, bölgədə istər siyasi, istərsə də iqtisadi cəhətdən ən zəif bənd məhz Ermənistandır. Bu baxımdan da özlərinin “oyunlarında” alət olaraq məhz bu ölkəni seçirlər. Hədəf isə regionda planlaşdırılan sülh prosesi seçilir...

> İqtisadi-ticari “aortanın” ən mühüm stansiyalarından biri sayılan Cənubi Qafqazda təhlükəsizlik arxitekturasına zərər vurmaq üçün bütün yollar “sınaqdan” keçirilir. Hətta Ermənistanın əli ilə yeni müharibələrin başladılması belə Qərb üçün istisna plan sayılmır - Avropanın bəzi addımlarında bu faktor özünü açıq şəkildə göstərir

### Milyonlarla dollar dəyərində...

Qısa faktlar əsasında Ermənistanın Fransa və Hindistandan əldə etdiyi silah sursata və onun qiymətlərinə nəzər salaq: İrəvan Fransadan 2019-2020-ci illərdə

- Hər biri 14 milyon avro dəyərində 3 ədəd “GM200” radar sistemləri;

- Ümumi dəyəri 20 milyon dəyərində olan “Bastion” zirehli transportyorları alıb.

2022-2023-cü illərdə isə iki ölkə arasında “Mistral” qısa mənzilli hava hücumundan müdafiə sistemlərinin alınması üçün müqavilə imzalanıb. Nəzərə alaq ki, raket başlıqlarının hər biri 300 min dollar dəyərindədir.

Hindistana gəldikdə isə bu ölkə 2021-ci ildə İrəvana 4 ədəd Pinaka reaktiv yaylım atəşi sistemləri “yollayıb”. 2022-2023-cü illərdə isə Delhi İrəvana “Akaş” hava hücumundan müdafiə kompleksi, “ATAGS” və “MArG 155” özüyeriyən haubitsaları, “Konkurs” tank əleyhinə raketləri verib. Cari ildə verilən silahlara gəlincə isə bu, “Zen” pilotsuz təyyarələridir. Hindistan, həmçinin Su-30SM təyyarələrinin modernləşdirilməsi ilə də bağlı müzakirə aparır.

Qərbin aktiv silahlandırma fazasına yeni ölkələr də “daxil” olmaq istəyir. Yunanıstan Ermənistana ölkənin hava hücumundan müdafiə sistemində istifadə edilən S-300 və Rusiya istehsalı olan digər iki silah sistemini təhvil verməyə və onları İsrail istehsalı sistemlərlə əvəz etməyə hazırlaşır. Beləliklə də, Ermənistanın silahlandırılmasında yeni “adlar” peyda olmağa başlayır.

> Ermənistanın silahlandırılmasında yeni “adlar” peyda olmağa başlayır

Qeyd edildiyi kimi, Ermənistanın müharibəyə təhrik olunması boşuna deyil - Aİ regionda eskalasiya yaratmaq üçün bütün vasitələri hərəkətə keçirib. Silahlanma ilə yanaşı, Aİ Ermənistana həm də kəşfiyyat materialları ötürür - bir neçə ildir ki, Ermənistanda “xidmət

### Aİ-nin “mülki” hərbi-kəşfiyyat qrupu...



aparan” və mülki missiya adı altında pərdələnən hərbi-kəşfiyyat qrupu məhz bu işlə məşğuldur. Aİ-nin Ermənistandakı “hərbi missiyası” Azərbaycan Ordusu, hərbi hissələrin dislokasiyası, potensial imkanları barədə kəşfiyyat məlumatları toplayaraq Ermənistana ötürür. Missiya üzvləri Ermənistan-Azərbaycan şərti sərhədi boyunca müntəzəm “monitorinqlər” aparır və bu zaman yüksək texnologiyalı avadanlıqlardan istifadə edir. Toplanan məlumatlar Ermənistan ordusu ilə bölüşülərək yeni müharibə planları üçün istifadə olunur. Mülki missiya nümayəndələri arasında hərbi keçmişə malik şəxslərin olması isə məsələdə heç bir şübhə yeri qoymur. Təsadüfi deyil ki, missiyanın tərkibi artıq 200 nəfərdən çoxdur. Missiyaya yeni qoşulanlar isə əsasən Avropa ölkələrindən olan hərbi və təhlükəsizlik üzrə mütəxəssislərdir. Missiyanın rəhbərliyində olan şəxslər arasında NATO ölkələrində kəşfiyyat və təhlükəsizlik xidmətlərində çalışmış şəxslər yer alır. Xüsusilə missiya rəhbərliyinin bəzi üzvlərinin Balkan münaqişələrində və Əfqanıstandakı NATO əməliyyatlarında iştirak etdiyi haqda məlumatlar var.

### Ermənistan müharibə hazırlığındadır?

Nəticə etibarı ilə Qərb bölgədə bütün səylərini qarşıdurmalara kökləyib. Hədəf isə vurğulandığı kimi müzakirə edilən və hətta bir çox məqamları razılaşdırılmış sülh prosesidir. Hazırda atılan addımlar, Ermənistanın mövqeyi isə bir çox mənalarda müharibə hazırlığını xatırladır...

**P.SADAYOĞLU**

# Gürcüstanda vətəndaş müharibəsi planı...

## Şəbəkələşmiş QHT Aİ-nin “etiraz toppuzu” rolunda

Bir neçə gündür ki, Gürcüstanda siyasi gərginliklər pik həddə çatır. Buna səbəb kimi isə hakim “Gürcü arzusu” partiyasının Aİ-yə üzvlüklə bağlı danışıqları təxirə salmaq qərarıdır. Belə ki, baş nazir İrakli Kobaxidzenin noyabrın 28-də hakimiyyətin 2028-ci ilin sonuna qədər Aİ-yə üzvlük danışıqlarını gündəmdən çıxardığını və Tbilisinin Avropanın maliyyə yardımından imtina etdiyini bildirməsi bəzi kütləvi etirazlara səbəb olub.

Dekabrın 1-dən 2-nə keçən gecə keçirilən mitinqdən sonra təxminən 40 nəfər xəstəxanaya yerləşdirilib Onlardan 24-ü etirazçı, 12-si isə polis əməkdaşıdır. Gürcüstan səhiyyə naziri Mixail Sarjveladze bildirib ki, polis əməkdaşları etirazçılardan daha ağır xəsarət alıblar.

### Milli maraqlara qarşı “müxalifət” - Qərb qondarma QHT-ləri işə qarışdırır

Xatırladaq ki, Qərbin Gürcüstanda yaratmağa çalışdığı çaxnaşmanın əsası bu ilin mayından qoyulub - “Xarici təsirin şəffaflığı haqqında” qanun layihəsinin qəbulu ilə Gürcüstanda “QHT” adı altında yaratdığı şəbəkənin ifşa olunacağından çəkinən Avropa buna qarşı çıxışlar etməyə başladı. İlk olaraq Tbilisidə etiraz aksiyaları keçirildi və həmin aksiyalara müxtəlif Avropa paytaxtlarından hətta “rəsmi” sayılacaq şəxslər belə qatıldı. Bunun da xeyri olmayanda Qərb Tbilisiyə qarşı aktiv sanksiya tədbirləri görməyə başladı. Amma Gürcüstan hakimiyyəti bunun qarşılığında nəinki geri çəkildi, hətta dövlətin maraqlarının qorunması üçün növbəti addımı atdı - LGBT təbliğatını qadağan edən qanun qəbul edildi. Bu isə vəziyyəti daha da dramatikləşdirdi - nəhayət, oktyabrın 26-da baş tutan seçkilərdə Qərbin “uduzması” aqressiyanın güclənməsi üçün “təkana” çevrildi.

Baş verən etirazların mahiyyətinə nəzər saldıqda bir fakt bəlli olur - illərlə Qərbin Gürcüstanda formalaşdırdığı şəbəkə bu gün milli maraqlara qarşı çıxış edən kütləyə “çevrilib”. Qərb QHT maliyyələşdirmə mexanizmi vasitəsilə vaxtilə dövlət içərisində qurduğu dayaqlarını “hərəkətə” gətirib. Məhz onların əli ilə öz gündəliyini qəbul etdirmək planı güdür. Aİ-nin apardığı xəttə diqqət yetirdikdə bəlli olur ki,

- Aİ vəziyyətin hətta vətəndaş müharibəsi şəkli almasında belə maraqlıdır;

- Buyruqçu QHT-çilərdən ibarət “dəstələr” üçün Gürcüstanın milli maraqları heç bir məna kəsb etmir;

- Mərkəzi hakimiyyətə qarşı LGBT və ifrat liberal sağçı düşərgələri yaradılır.

Prosesi daha da emosionallaşdırmaq istəyənlərin “tələblərinə” nəzər saldıqda, orada dövlətin maraqlarının müdafiəsi ilə bağlı hər hansı bir müddəaya rast gəlmək mümkün belə deyil - hətta QHT-lər vasitəsilə “etirazçı kütləni” o qədər manqurtlaşdırırlar ki, bu gün siyasi müzakirələrdə Gürcüstanın ərazi bütövlüyü, itirilmiş torpaqların geri qaytarılması müzakirə mövzusu belə deyil. Adını “narazılar” qoymuş kütlənin nədən narazı olması bütün parametrləri ilə ortadadır - onlar, Qərbin Gürcüstanda öz arzularını reallaşdırmasının qarşısının alınmasından narazıdırlar...



### 2014-cü il Ukrayna ssenarisi təkrarlanır...

Göründüyü kimi, Qərb Gürcüstanda da ənənəvi planını həyata keçirir - 2014-cü ildə Ukrayna üçün “yazılmış” ssenari bu gün Tbilisidə təkrarlanır. Küçə döyüşləri, polisə qarşı zorakılıq, “beynəlxalq dəstək” kimi analoji komponentlər Qərbin hər zaman istifadə etdiyi ştrixlərdir. Təsadüfi deyil ki, Qərb vətəndaş müharibəsini körükləmək üçün hətta xarici vasitələrdən də aktiv istifadə edir - yayılan xəbərlərə görə, Gürcüstana Balkan ölkələrindən, Şərqi Avropa və əsasən də Baltik ölkələrindən çoxlu sayda təxribatçılar gətirilib. Onların arasında silahlı təxribatçıların da olması istisna deyil. Hətta bəzi siyasi ekspertlər etirazçıların təxribatçı dəstələr tərəfindən yaralanması və bunun Gürcüstan hökumətinin üzərinə atılması ehtimalını da istisna etmirlər.

### May ayında tribunalarda olanlar bu gün küçə döyüşü aparır...

May ayında tribunalarda “boy göstərən” avropalı diplomatlar bu qarşıdurmaların “hakimi” kmi davranır. Xüsusilə, Aİ-nin Gürcüstandakı səfiri özünü canişin kimi aparır - Qərb səfirlərinin, Aİ ölkələrinin Gürcüstan xalqının iradəsi ilə seçilmiş hakimiyyətinə qarşı tutduğu mövqe isə birmənalı hibrid müharibə kimi dəyərləndirilir. Başqa ölkələri hibrid müharibələrdə günahlandıran Qərb Gürcüstanın daxili işlərinə qarışır.

Cənubi Qafqazı qarışdırmaq planı bir mərkəzdən idarə olunur - Ermənistanı himayə edən güclər Gürcüstanda da siyasi gərginliklərin baş rolunu icra edir. Vaxtilə Fransa vətəndaşı olmuş prezident Zurabişvili isə bu planların icraçısı kimi “görünür” - halbuki, hətta etiraz belə varsa, bu, Tbilisinin daxili işidir. Demokratik əsaslarla keçirilmiş seçkilərin nəticələrinə hörmətlə yanaşmayanlar Ukraynanı müharibəyə sürüklədiyi kimi Gürcüstanı da eyni qaranlıq dalana yuvarlamağa çalışır.

### Hakimiyyət Konstitusiya Məhkəməsinə, Zurabişvili isə AŞ-ya üz tutub...

Son yayılan xəbərlər isə onu deməyə əsas verir ki, Aİ-nin oynadığı oyun artıq tam ifşa edilib. Bunun qarşısının alınması üçün xalq mütəşəkkilik göstərməlidir - etirazçıların ölkə konstitusiyaya qarşı apardıqları təbliğat aradan qaldırılmalıdır. Təsadüfi deyil ki, baş nazir Kobaxidze Konstitusiya Məhkəməsinə müraciət edə biləcəyini istisna etməyib. “Müxalifətçilər bu günlərdə açıq şəkildə Gürcüstanın konstitusiya quruluşuna qarşı çıxırlar. Bu da Konstitusiya Məhkəməsinə müraciət etmək və müxalifət partiyalarını konstitusiyaya zidd elan etmək üçün birbaşa zəmin yaradır”.

Gürcüstan prezidenti Salome Zurabişvili isə ölkəsinin maraqlarını qorumaq əvəzinə yenə də üzünü Avropa Şurasına tutub - o, Şuranın rəhbəri Antonio Kosta və Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə yeni ali nümayəndəsi Kaya Kallas ilə telefonla müzakirə aparıb.

**SADİQ**

# 1014 gün...

## Rusiya-Ukrayna cəbhəsində nə baş verir?

Başlanğıcda qısamüddətli münaqişə kimi təqdim olunan Rusiya-Ukrayna müharibəsi artıq 1014-cü gününə qədəm qoysa da, onun sonu görünmür. Müharibə artıq regional müstəvidən çıxaraq qlobal səciyyə daşımağa başlayıb. Bəşəriyyətin yeni dünya müharibəsi təhlükəsi ilə üz-üzə qaldığı, bəlkə də, artıq onun içində olduğu barədə təəssüfedici qənaətlər bölüşülür. Vəziyyət o dərəcədə kritik hala gəlib ki, hətta ölkələrin nüvə düyməsini basacağı ehtimalları da kifayət qədər yüksəkdir. Reallıqda Rusiya-Ukrayna cəbhəsində nə baş verir?

### Ukraynada yaranan acınacaqlı durum

Təbii ki, uzanan müharibənin ən ağır fəsadlarını Ukrayna öz üzərində hiss edir. Kollektiv Qərb hər nə qədər Ukraynanı dəstəkləsə də, ölkə müharibədən böyük dərəcədə ziyan çəkir. Ukrayna ərazilərinin bir hissəsini itirib, milyonlarla vətəndaş doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalıb, döyüşlərin getdiyi ərazilərdə və dərinliklərdə mülki infrastruktur dağıdılıb.

Bu gün Ukraynada həyatın bütün sahələrində kritik vəziyyət müşahidə olunur. Soyuqların düşdüyü bir vaxtda enerji təminatında vəziyyət xüsusilə ağırdır. Artıq Ukrayna hökuməti elektrik enerjisi idxalı üçün beş ölkəyə müraciət ünvanlayıb.

Bu barədə Ukraynanın Energetika Nazirliyi "Telegram" kanalında məlumat yayıb. Elektrik enerjisinin Polşa, Rumıniya, Slovakiya, Macarıstan və Moldovadan alınacağı bildirilir. Nazirlik vətəndaşları güclü məişət elektrik cihazlarını eyni vaxtda yandırmamağa və elektrik enerjisinə qənaət etməyə çağırıb.



Baş nazir Denis Şmıqalın sözlərinə görə, Ukrayna yazdan bəri ümumi generasiya gücünün təxminən 50 faizini itirib. Hücumlar nəticəsində istilik elektrik stansiyalarının 90 faizinə və su elektrik enerjisi istehsalı obyektlərinin isə üçdə birinə ziyan dəyib.

### Kollektiv Qərb yardımları davam etdirir

Zamanında Ukraynanı müharibəyə təhrik edən kollektiv Qərb bu ölkəyə 2025-ci ildə də yardımları davam etdirəcək. Belə ki, Ukrayna maliyyə yardımı çərçivəsində 2025-ci ildə Avropa İttifaqından (Aİ) aylıq 1,5 milyard avro alacaq. Transların ödənişi yanvar ayından başlayacaq.

Bu barədə Kiyevdə Ukrayna Prezidenti Volodimir Zelenski ilə birgə mətbuat konfransında Avropa İttifaqı Şurasının prezidenti Antonio Kosta deyib. Kostanın sözlərinə görə, artıq dekabr ayında Avropa İttifaqı "Ukrayna büdcəsini dəstəkləmək" üçün Ukraynaya əlavə 4,2 milyard avro ayıracaq. "Bundan əlavə, gələn aydan biz bütün il boyu hər ay daha 1,5 milyard avro yardım göstərəcəyik", - deyə Avropa İttifaqı Şurasının rəsmisi bildirib.

Kosta, Aİ-nin bu vəsaiti Rusiyanın dondurulmuş aktivlərinin istifadəsindən əldə edəcəyini və onlardan hərbi məqsədlər üçün də istifadə oluna biləcəyini açıqlayıb. Onun sözlərinə görə, Rusiyanın mülki infrastrukturu, o cümlədən enerji obyektlərinin atəşə tutulması fonunda blok Ukraynaya maliyyə, hərbi, iqtisadi, enerji və humanitar yardım göstərməyə davam edəcək. "Biz ukraynalılara demək istəyirik ki, biz müharibənin əvvəlindən sizi dəstəkləyirik və siz bizə etibar etməyə davam edə bilərsiniz. Biz əlimizdən gələni əsirgəməyəcəyik", - deyə Kosta əlavə edib.

Bundan başqa, Almaniya Ukraynaya 650 milyon avro məbləğində hərbi yardım göstərməyi planlaşdırır. Bunu müharibə başlayandan bəri Ukraynaya ilk dəfə səfərə gələn Almaniya kansleri Olaf Şolts deyib.

### Ukraynanın vaz keçmədiyi NATO planı

Məlumdur ki, Rusiya-Ukrayna müharibəsinin başlamasının şərtlərindən əsas amillərdən biri də Şimali Atlantika Alyansının (NATO) Şərqə doğru genişlənmək planları ilə bağlıdır. Bu plana əsasən Ukraynanın da alyansa üzvlüyü hədəflənmişdi. Rusiya bunu özü üçün "qırmızı xətt" keçilməsi anlamında qəbul etdi və müharibə başladı.

Beə görünür ki, Ukrayna uzanan müharibənin ciddi fəsadları ilə üzləşsə də, NATO-ya üzv qəbul olunmaq planlarından vaz keçməyib. "Müharibənin qaynar fazasını dayandırmaq istəyiriksə, Ukrayna ərazisini NATO-nun çətiri altında öz nəzarətimizə götürməliyik. Biz bunu tezliklə etməliyik. Belə olan təqdirdə Ukrayna diplomatik yollarla işğal etdiyi əraziləri geri qaytara biləcək".

Bunu Ukrayna Prezidenti Volodimir Zelenski "Sky News" telekanalına müsahibəsində deyib. Zelenski hesab edir ki, Ukraynanın NATO-ya daxil olması müharibənin qaynar fazasını dayandırmağa kömək edə bilər. "Siz ölkənin yalnız bir hissəsini dəvət edə bilməzsiniz. Çünki o zaman yalnız bu yerlərin Ukraynanın ərazisi olmasını, qalanının isə Rusiyaya aid edilməsini tanıyırsan. Hüquqi baxımdan bizim işğal olunmuş əraziləri Rusiya ərazisi kimi tanımağa haqqımız yoxdur. Bu məsələdə yanılmaq olmaz", - deyə Ukrayna Prezidenti bildirib.

Onun sözlərinə görə, NATO-ya dəvətin özündə də Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri gös- ... tə- rilməlidir.

Amma heç kim Ukraynanın bu və ya digər şəkildə NATO-nun bir hissəsi olmasını təklif etməyib və Kiyev heç vaxt belə bir təklifi nəzərə almayıb.

Xatırladaq ki, Ukrayna bu ilin iyulunda Vaşinqtonda keçirilən sammitdə NATO-ya rəsmi dəvət alacağına ümid edirdi, lakin bu, baş verməd di

**Zelenski: "Müharibənin qaynar fazasını dayandırmaq istəyiriksə, Ukrayna ərazisini NATO-nun çətiri altında öz nəzarətimizə götürməliyik. Biz bunu tezliklə etməliyik. Belə olan təqdirdə Ukrayna diplomatik yollarla işğal etdiyi əraziləri geri qaytara biləcək"**

### Ukraynaya nüvə silahı veriləcəkmi?

İndiki reallıqlar fonunda bir sual da çox aktualdır: Ukraynaya nüvə silahı veriləcəkmi?

Ancaq hələlik Ukraynanın bu istəyi də adekvat qarşılanmır. "ABŞ nüvə silahının Ukraynaya verilməsini planlaşdırmır. Bu barədə düşünülmür".

Bu sözləri CNN telekanalına müsahibəsində ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan deyib. Onun sözlərinə görə, ABŞ Kiyevə adi silah tədarükünə belə diqqət yetirir.

O, həmçinin bildirib ki, Rusiyanı nüvə dövləti kimi məğlub etmək mümkün deyil.

*M.ABDULLAYEV*

# Baydendən ədalətsiz qərar

## O, cinayətləri sübut olunmuş oğlu Hanteri əfv etməklə hüquqa və qanunlara hörmətsizlik etdi



ABŞ Prezidenti Cozef Bayden silah və vergidən yayınma üzrə təqsirli bilinən və dekabrda həbsi nəzərdə tutulan oğlu Hanter Baydeni əfv edib. Keçən ay Ağ Evin prezidentin oğlunu əfv etmək niyyətinin olmadığına dair verdiyi açıqlamaya baxmayaraq, onun əvf edilməsinə dair bəyanat yayılıb.

Cozef Bayden əfv qərarını oğluna qarşı irəli sürülən ittihamları siyasi motivli olması ilə əlaqələndirməyə çalışıb. Bayden əlavə edib ki, oğlunu əfv etmək qərarını çox düşündükdən sonra verib və bu qərarda təkcə doğmalıq deyil, həm də məhkəmənin ədalətsiz olduğuna inanması rol oynayıb: "Mən ədalətə inanıram, amma inanıram ki, siyasət bu prosesə nüfuz edib və ədalətin pozulmasına gətirib çıxarıb".

**Prezidentin narkoman oğlunu nə qədər cəza gözləyirdi?**

Xatırladaq ki, Hanter Bayden 2018-ci ildə narkotik maddənin təsiri altında odlu silah alması ilə bağlı üç ağır maddə üzrə təqsirli bilinib. O, "Colt Cobra" revolverini alarkən narkotik qəbul etmədiyini yazılı şəkildə qeyd edərək yalan söyləyib və narkomanların odlu silaha sahib olmasını qadağan edən qanunu pozub. O, həmçinin vergidən yayınma ilə bağlı irəli sürülmüş 9 ittiham üzrə məhkəmədə təqsirli olduğunu etiraf edib. 2023-cü ilin dekabrında isə konkret ittiham irəli sürülüb və barəsində məhkəmə qərarı var. Prezidentin oğlunu vergi ittihamı üzrə maksimum 17 il həbs cəzası və 1,35 milyon dollara qədər cərimə, silah alışına görə 25 ilə kimi azadlıqdan məhrumetmə cəzası və 750 min dollar cərimə gözləyirdi. Silah alışı ittihamı üzrə onun həbsi dekabrın 13-nə, vergi məsələsi ilə bağlı dekabrın 16-na nəzərdə tutulmuşdu.

Göründüyü kimi, Hanter məhkəmə prosesi zamanı təqsirli olduğunu etiraf edib. Belə olan halda, ata Baydenin məhkəmənin qərarında siyasi motiv axtarmasının heç bir əsası yoxdur. Digər tərəfdən, ABŞ-da hər kəs oğul Baydenin əyyaş, narkoman, cinayət törətmiş şəxs olduğunu yaxşı bilir. Hər iki iş üzrə- həm silah məsələsi, həm də vergidən yayınmada Hanterin qanunsuz əməlləri sübuta yetirilib. Lakin Prezident Bayden səlahiyyətlərindən sui-istifadə edərək öz oğlunu azadlığa buraxdı. Əslində, bu qərara təəccüblənməmək də olar. Çünki vaxtında tüfeyli həyat tərzinə görə qınaq hədəfində olan Baydenin narkoman, cinayətkar, əxlaqsız oğlunu əfv etməsi başa düşüləndir.

**Tramp bu qərarı "sui-istifadə" adlandırıb**

Görünür, bu, amerikasayağı demokratiyadır. Digər ölkələrə qanunun aliliyindən dərs keçməyə çalışan Bayden administrasiyası ən ali səviyyədə belə qanunsuzluqlar törədir. Ona görə də, Baydenin başqa ölkələrə ədalət dərsi keçməyə mənəvi haqqı yoxdur.

Yeri gəlmişkən, ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp Baydenin öz oğlunu əfv etməsini sui-istifadə və hüququn aliliyinin pozulması kimi səciyyələndirib. Tramp hesab edir ki, bu qərar ədalət prinsiplərindən uzaqdır. Belə olan halda, onun səlahiyyətlərini icra etməyə başlamasından sonra oğul Baydenin işinə yenidən baxılması istisna deyil.

*Nardar BAYRAMLI*

# Suriya müharibəsində növbəti mərhələ

## Beynəlxalq aləm işə qarışıb

Yaxın Şərqdə vəziyyət yenidən alovlanır. Bir müddət idi ki, sükutun hökm sürdüyü Suriyada vəziyyət yenidən qarışıb. Şiddətlənən hadisələr bölgədəki mürəkkəb vəziyyəti yenidən diqqət mərkəzinə gətirib. Xatırladaq ki, Suriyanın şimalında gedən proseslər bir neçə istiqamətdə izah olunur:

- Türkiyənin hərbi hərəkətləri: Türkiyə, Suriyanın şimalında kürd YPG qruplarına qarşı hərbi əməliyyatlarını gücləndirib;
- Suriya hökumətinin çətinlikləri: ayrı-ayrı dövlətlər tərəfindən dəstəklənən Bəşər Əsəd üçün vəziyyət ağırlaşıb. Şimal-qərb bölgələrində müxalif qrupların hücumları hakimiyyəti zəiflədib. M-5 yolu kimi strateji əhəmiyyətli marşrutlar nəzarətdən çıxıb, bu da hərbi və iqtisadi problemlər yaradır.

Bu proseslər isə Suriyada yeni bir hərbi eskalasiyanın başlanğıcı ola bilər. Hazırda bütün diqqət münaqişənin necə inkişaf edəcəyinə yönəlib.

### Türkiyə dəfələrlə xəbərdarlıq edib...

Müxalif qüvvələrin yenidən hücuma başlaması Suriya ətrafında yeni siyasi çəmbər yaradıb. Xüsusilə region ölkələri baş verənlərdən narahatlığını ifadə etməkdədir. Dünən bununla bağlı mətbuat konfransı keçirən Türkiyənin xarici işlər naziri Hakan Fidan bildirib ki, indiki mərhələdə Suriyadakı hadisələri hər hansı bir xarici müdaxilə ilə izah etməyə çalışmaq yanlış olar. Bu, vəziyyəti anlamaq istəməyənlər üçün bir sığınacaq yeridir. Fidan bildirib ki, Suriyada genişmiqyaslı qarşıdurmaların yenidən başlamasının səbəbi bu ölkənin bir-birinə bağlı problemlərinin 13 ildən artıqdır ki, həll edilməməsidir. Suriyada mülki şəxslərə qarşı hərtərəfli hücumların vətəndaş müharibəsini yenidən alovlandırdığını bildirən Fidan bu mövzuda bütün əlaqədar tərəflərə dəfələrlə xəbərdarlıq etdiklərini vurğulayıb.

Astana Prosesi çərçivəsində İranla koordinasiyanı davam etdirəcəklərini ifadə edən Fidan qeyd edib ki, Türkiyə Suriyanın ərazi bütövlüyü və birliyinin qorunmasının hər zaman dəstəkləyib: "Bundan sonra da dəstəkləyəcəyik. Biz xüsusilə vətəndaş müharibəsinin daha da qızışmasını istəmirik. Dinc əhalinin öldürülməsini, mülki infrastrukturun məhv edilməsini və şəhərlərin yenidən ağır bombardmanlarla dağıdılmasını görmək istəmirik".

### İran ABŞ-ı günahlandırır - İraq sərhəddə qoşun yığır

İran İslam Respublikasının xarici işlər naziri Abbas Əraqçi türkiyəli həmkarı Hakan Fidan ilə danışıqlardan sonra mətbuata açıqlamasında İran və Türkiyənin Suriyanın terrorçuların sığınacağına çevrilməyəcəyinə əmin olduğunu bildirib. "Biz Suriyanın yenidən terrorçular üçün təhlükəsiz sığınacaq olmaması mövzusunda ortaq mövqedəyik. Bizim məlumatlara görə, Suriyada fəaliyyət göstərən terrorçu qruplar ABŞ və İsrail ilə sıx əlaqələr saxlayır və öz hərəkətlərini əlaqələndirirlər".

Onun sözlərinə görə, ABŞ və İsrail bu qruplardan Suriyanın təhlükəsizliyini təhdid etmək və beynəlxalq ictimaiyyətin diqqətini Fələstin və Livanda baş verənlərdən yayındırmaq üçün istifadə edir".

Bu arada İraq ordusunun Suriya ilə sərhəd qapısı olan Əl-Qaimdən İordaniyaya qədər bölgənin təhlükəsizliyini təmin etmək üçün bölgəyə zirehli birliklər göndərdiyi bildirilib. Anadolu Ajansının məlumatına görə, İraq Müdafiə Nazirliyindən yazılı açıqlama verilib. Açıqlamada zirehli bölmələrin ölkənin Suriya sərhədindən İordaniya sərhədinə qədər olan ərazidə dəstək və təhlükəsizliyi təmin etmək üçün hərəkətə keçdiyi qeyd edilib.



### ABŞ qoşunları risk bölgəsindən aralıdadır...

Ağ Evin milli təhlükəsizlik üzrə müşaviri Cek Sallivan Suriya müxalifətin Hələb və onun ətrafındakı hərəkətlənməsini onları dəstəkləyən dövlətlərin güc itirməsi və diqqətin Suriyaya yönəldilməsi cəhdi kimi qiymətləndirib. Hücumun sürətli şəkildə həyata keçirilməsini təəccüblü sayan Sallivan Hələb və İdlib şəhərlərində baş verən son hadisələrin ABŞ-ın bölgədəki qüvvələri üçün risk təşkil edib-etməməsinə də aydınlıq gətirib: "Hazırda İŞİD-lə mübarizə aparmaq üçün Suriyada yerləşdirilən qüvvələrimiz hadisələrin baş verdiyi ərazidən aralıdır. Bu məna onlar xüsusi təhlükə altında deyillər. Bununla belə, hələ də İran və İraqdakı şiə qrupları tərəfindən təhdid altında sayılırlar. Biz onların müdafiəsini təmin etmək və onlara qarşı hücumlara cavab vermək üçün hər an hazırıq".

### Britaniya danışıqlara çağırış edib - Rusiya Əsədi dəstəkləyir

Britaniya Xarici İşlər Nazirliyi isə bəyan edib ki, Suriyada mövcud vəziyyət Bəşər Əsəd rejiminin siyasi proseslərdə iştirakdan daim imtina etməsi səbəbindən yaranıb. İngiltərə Xarici İşlər Nazirliyinin sözçüsü Suriyadakı hadisələrlə bağlı verdiyi açıqlamada bildirib ki, Birləşmiş Krallıq bütün tərəfləri mülki insanları və infrastrukturu qorumağa çağırır. Ölkədəki qarşıdurmaların sona çatması üçün siyasi həll yolu məqbul hesab edilib. Bəyanatda Suriya hakimiyyəti və digər aktorlar BMT Təhlükəsizlik Şurasının 2254 saylı qətnaməsinə uyğun olaraq danışıqları dəstəkləməyə və iştirak etməyə çağırılıb.

Kremlin sözçüsü Dmitri Peskov isə Suriya prezidenti Bəşər Əsədi dəstəkləməyə davam etdiklərini bildirib. Peskov açıqlamasında bildirib ki, vəziyyətin sabitləşməsi üçün lazımi mövqe müəyyən ediləcək.

### İdlib bombalandı - Silahlı qruplaşmalar Suriyaya daxil oldu...

Dünən yayılan məlumata görə, Bəşər Əsəd rejimi Su-22 qırıcıları ilə İdlib şəhərinin mərkəzinə zərbələr endirib. Türkiyə mətbuatı yazıb ki, hava hücumu nəticəsində həyatını itirənlər olub, çox sayda insan yaralanıb. Bundan başqa, İdlibin şimalındakı Harbanuş kəndindəki çadır şəhərciyinə təşkil edilən hücum zamanı 5-i uşaq, 2-si qadın olmaqla, 7 nəfər ölüb, 12 nəfər isə yaralanıb.

İranın dəstəklədiyi silahlı qruplaşmalar, o cümlədən İraqın "Kətaib Hizbullahı" və "Fatimiyyun" dəstələri Suriya ərazisinə daxil olublar. Onlarla Həşdi-Şəəbi qüvvəsi Suriyanın şərqindəki Əl-Bukamal bölgəsindən keçərək şimal cəbhələrinə göndərilib. Silahlılar orada yardımçı qüvvə kimi yerləşdirilməyə səfərbər edilirlər. Qüvvələrin Suriya prezidenti Bəşər Əsədin müraciətinə cavab olaraq köməyə göndərildiyi bildirilir.

*SADİQ*

# Polşa Ukraynadan “nə” istəyir?

## Duda ölkəsinin “arzularını” necə ifşa etdi? Qonşusuna kəm baxan...

“Soyuq Qərb təbəssümü”... “Demokratik” Avropanın “kimlik vəsiqəsi”nə çevrilmiş bu qeyri - səmimi jest “köhnə qitə” haqqında demək olar ki, hər şeyi ifadə edir. Dünyada yeni trendə çevrildiyi deyilən qeyri-səmimilik, üzə gülüb arxadan zərbə endirmək üçün fürsət güdmək, “saman altından” planlar qurmaq kimi “ənənələr” Qərbin köhnə şakəridir...

Bir ölkənin dağıdıcı müharibəyə cəlb olunması və bu müharibənin illərlə davam etməsi ən çox qonşu dövlətlərə təsir edər - ənənə belədir ki, qonşu dövlətlər bu müharibələrin sülhlə yekunlaşması üçün bütün gücünü səfərbər edər, bütün vasitələrdən istifadə edər. Əgər kənardan dayanıb, hətta marığa yatmış kimi prosesi müşahidə edirsə, ya, onun gizli planı var, ya da...

### Duda özünü ələ verdi: “Ukrayna tortu”ndan Polşa payı...

Söhbəti konkretləşdirək - Azərbaycan ilə Ermənistanın şərti sərhəd xəttini “ziyarət edən” Polşa prezidenti Duda bəlkə də həyatının səhvini buraxdı - diş altında yatan “işğalçı” iştahını bütün detalları ilə qusdu. Duda şərti sərhəd xəttindən ölkəmizə tərəf Qərbin işğalçı motivasiyasına uyğun “ağız suyu” axıtmaqla boylanan zaman illərlə üstünü örtməyə çalışdığı, amma boğa bilmədiyi imperialist arzularını gözlərində əks elətdirirdi. Bu “arzular” həm də Polşanın qonşu Ukraynada müharibəni bitirmək yerinə, yanan odun üzərinə silah-sursat atmasının səbəbini üzə çıxarırdı. Tarixən Ukraynaya “qonşuda bişər, bizə də düşər” ideyası ilə yanaşan Polşanın bu müharibədən də öz gözləntiləri var... Polşa gözləyir ki, Qərbin “Ukrayna tortu”ndan öz payını alsın...

**Polşa gözləyir ki, Qərbin “Ukrayna tortu”ndan öz payını alsın...**

### Ukrayna unutmayıb: Vistula hadisəsi 2024-cü ildə xatırlanırsa...

Bir haşiyəyə çıxaq - bu ilin avqustunda Polşa ilə Ukrayna arasında bir “skandal” yaşandı. Səbəb “tarix” idi. Ukraynanın keçmiş xarici işlər naziri Dmitri Kuleba 1947-ci ildə Vistula əməliyyatı zamanı ukraynalıların qovulduğu Polşanın şərqindəki Lyublin, Subkarpatiya və Kiçik Polşa ərazilərinin “Ukrayna torpaqları” olduğunu demişdi. Kuleba və Polşanın xarici işlər naziri Radoslav Sikorski Olştın şəhərindəki “Kampus Polska Przyszlosci” tədbirində iştirak edən zaman Kuleba bildirmişdi ki, tədbir iştirakçıları 1947-ci ildə Vistula əməliyyatı çərçivəsində Ukrayna əhalisinin köçürüldüyü Olştında görüşürlər - sitat: “Siz Vistula əməliyyatının nə olduğunu başa düşürsünüz və bilirsiniz ki, bütün bu ukraynalılar yaşamaq üçün Ukrayna ərazilərindən, o cümlədən Olştından məcburi şəkildə qovulublar”...

Bunu nahaq yerə xatırlatmadıq. Polşa Ukraynanın Qərb torpaqlarını mənimsəyərək oranın yerli sakinlərini şərqə doğru qovmuşdu və həmin torpaqları özününküləşdirmişdi. Bu lap çoxdan olmayıb - heç 100 il də keçməyib bu hadisədən. Şərti sərhəddən Azərbaycana tərəf boylanan Dudanın genetik yaddaşına tarixi salsaq isə...

### Tarix unudulmur: Polşa işğalı...

Tarix bütün həqiqəti çılpaqlığı ilə ortaya qoyur. Polşa tarixən Ukraynaya özünün hissəsi kimi baxıb - bu gün də baxır. Bu ta 14-cü əsrdən bu yana belədir. Ukrayna əraziləri əvvəlcə Polşa Krallığı və sonradan Polşa-Litva Birliyi tərəfindən istila olunub. 1569-cu ildə Lubin İttifaqı ilə Ukrayna ərazilərinin çoxu Polşa-Litva Birliyinə (Reç Paspolita ordeninə) daxil edildi. Bu birlik ukraynalıları Polşa “mədəniyyəti”nə və idarəetməsinə inteqrasiyaya məcbur edirdi.

XVII əsrdə baş verən Xmelniçki qiyamı ilə ukraynalılar Polşa idarəsinə qarşı mübarizəni gücləndirdilər. Polşa zəiflədikcə Ukraynanı məcburən və qəsdən başqa-başqa ölkələr arasında bölüşdürürdü - 1772, 1793 və 1795-ci illərdə Qərbi Ukrayna Habsburq Prussiyasına peşkəş çəkilirdi.

Polşa özünün Ukrayna “arzularını” bir daha XX əsrin əvvəlində “daşdırdı”. 1918-ci ildə Birinci Dünya müharibəsindən sonra Qərbi Ukrayna ərazisi yenidən Polşaya birləşdirildi. Bu dövr, 1921-ci il Riqa müqaviləsi ilə rəsmiləşdirildi - Polşa müqavilənin şərtlərinə görə Kerzon xəttinin şərqində yerləşən geniş ərazilərə sahib oldu. Bu ərazilər polyak əhalinin azlıq təşkil etdiyi - Qərbi Ukrayna (Volın vilayətinin qərb hissəsi), Qərbi Belarusiya (Qrodno vilayəti) və Rusiya imperiyasının digər əyalətlərinin ərazilərinin bir hissəsi idi.

Və... Kulebanın xatırlatdığı 1947-ci il. Vistula əməliyyatı çərçivəsində Ukrayna əhalisi öz torpağından qovuldu... Polşa tərəfindən...



Polşanın Ukraynaya həriscəsinə gözünü dikməsini rəsmi Varşava etiraf etmir və edə də bilməz - bu, diplomatik qalmaqala səbəb olmaqla yanaşı, Qərbin və Polşanın planlarının ifşası demək olar. Amma Polşada bəzi insanlar özünü saxlaya bilməyib bu gizli arzunu faş edirlər - bəzi Polşa siyasətçiləri və ziyalıları Ukraynanın tarixi baxımdan Polşa ilə

### Polşa “işarə” vurur: “tarixi Polşa torpaqlarına yardım”...

bağlılığını vurğulayırlar, hətta Polşa parlamentində Ukraynaya yardım məsələsi müzakirə edilərkən bir sıra deputatlar öz “həqiqətlərini” “tarixi Polşa torpaqlarına yardım edirik” şəklində “əsaslandırmışdı”.

Tarixdə isə Polşa millətçiləri tez-tez bu ərazilərin “etnik Polşa torpaqları” olduğunu ifadə etmişlər. Məsələn, Jozef Pilsudski və digər siyasətçilər belə fikirlər irəli sürmüşdülər. Bu yanaşmalar müasir dövrdə sadəcə diplomatik münasibətlərdə çətinliklər yaratmamaq üçün rədd edilir...

Ukraynanın bəzi tarixi şəxsiyyətləri də Polşa istilasını açıq şəkildə ifşa ediblər:

- Baş ataman, Ukraynanın hərbi və siyasi xadimi Simon Petlyura Polşanın Ukrayna üzərində hökmranlıq cəhdlərinə qarşı çıxmışdı. O, Ukrayna xalqının öz torpaqlarında müstəqil olmasını müdafiə edirdi və Polşanın dominantlıq siyasətinə qarşı çıxış edirdi.

- Ukrayna millətçisi Stepan Bandera Polşa hökumətini Qərbi Ukraynada ukraynalıların hüquqlarını məhdudlaşdırmaqda günahlandırırdı. Bandera və tərəfdarları Polşa ilə toqquşmalarda Qərbi Ukraynanın müstəqilliyi üçün çalışırdılar.

- Tanınmış tarixçi və siyasi xadim Mixaylo Xruşevski Ukrayna xalqının öz tarixi torpaqlarında müstəqillik uğrunda mübarizəsini vurğulamışdı. O, Polşanın 1920-ci illərdə Qərbi Ukraynada mədəniyyət və iqtisadiyyat baxımından dominantlıq etməsini tənqid edirdi.

Bu kimi misallar çoxdur... Tarix artıq şərhə ehtiyac qoymur...

### Dövrün güzgüsü: “Taras Bulba” həqiqətlərin mayakı kimi...

Ədəbiyyat bir mənada öz dövrünün güzgüsü də sayılır. Yaranan əsərlər bir çox hallarda tarixi həqiqətlərin üzərinə işıq salır. Məsələn, Qoqolun məşhur “Taras Bulba”sı kimi. Bu əsər bəlli olduğu kimi, Ukrayna xalqının həyatını, adət-ənənələrini, mübarizəsini özündə əks etdirir. Əsərdəki əsas mövzulardan biri ukraynalı kazakların Polşa hakimiyyətinə qarşı mübarizəsidir. Əsərdə Taras Bulba Ukraynanın Polşaya qarşı mübarizəsini simvolizə edən bir obraz kimi təsvir olunur. Taras Bulba Polşa hakimiyyətini Ukraynanın siyasi və dini müstəqilliyinə təhdid olaraq görür. Əsərdə açıq şəkildə Ukraynanın Polşa ərazisi kimi təqdim edilməsinə etirazlar var - Taras Bulbanın ifadələri və əməlləri Polşa ilə Ukrayna arasındakı tarixi gərginliyin tarixi yansımasıdır. Əsərdən bəzi diqqətçəkən məqamlara nəzər salaq:

- Əsərdə polşalıların katolik inancını yaymağa çalışmaları və kazakların pravoslavlığa sədaqətləri ilə ziddiyyət yaradan hadisələr yer alır.

- Taras Bulbanın Polşaya qarşı nifrəti həm də milli səviyyədə ifadə edilir. Onun fikirlərində Polşanın Ukrayna torpaqlarında “xarici hakimiyyət” olması vurğulanır.

- Taras Polşa hökumətinin və ordusunun davranışlarını “zülmkar” kimi xarakterizə edir və kazakların bu zülmə qarşı mübarizəsini ilahi bir borc hesab edir.

Məsələn, Taras Bulbanın oğullarına dediyi bir məqamda, onların vətənə və dinə sadiq qalmalarının əhəmiyyətini vurğulaması, kazak həyat fəlsəfəsini əks etdirir.

**Polşanın Ukraynaya hərisćəsinə gözünü dikməsini rəsmi Varşava etiraf etmir və edə də bilməz - bu, diplomatik qalmaqala səbəb olmaqla yanaşı, Qərbin və Polşanın planlarının ifşası demək olar. Amma Polşada bəzi insanlar özünü saxlaya bilməyib bu gizli arzunu faş edirlər - bəzi Polşa siyasətçiləri və ziyalıları Ukraynanın tarixi baxımdan Polşa ilə bağlılığını vurğulayırlar, hətta Polşa parlamentində Ukraynaya yardım məsələsi müzakirə edilərkən bir sıra deputatlar öz “həqiqətlərini” “tarixi Polşa torpaqlarına yardım edirik” şəklində “əsaslandırmışdı”**

### “Qonşuda bişər”...

Bəli, nəticə onu göstərir ki, Ukrayna müharibəsinin uzanmasında, Ukraynanın dağılmasında Polşa hamıdan daha çox maraqlıdır. Yuxarıda qeyd etdiyimiz “misal” Polşanın “münasibətində özünü belə də ifadə edə bilər - “qonşuda bişər, bizə pay düşər”...

**Pərviz SADAYOĞLU**

# Varlığın yaxasını açmaq

## Fridrix Novalisin “Henrix fon Ofterdingen” romanı haqqında

**əvvəli ötən sayımızda**

Müəllif on üçüncü əsrdə yaşadığı deyilən əfsanəvi nəğməkar şair Henrix fon Ofterdingeni əsərinə qəhrəman seçib. Əslində, prototipin onun qəhrəmanına elə də bənzəri yoxdur, yəni Novalis əsərinin süjetini qədim şair haqqında rəvayətlərdən asılı vəziyyətə salmayıb, ona sadəcə tarixi fon, bir də mifik şəxsiyyətin obrazı gərək olub. Roman başdan-başa rəmzlərdən, simvollardan toxunub, ana süjet tez-tez qəhrəmanın yuxularından, ona danışılan nağıl, əfsanə, rəvayətlərdən ibarət xırda qollara ayrılır.

İyirmi yaşlı Henrix yuxusunda qaranlıq meşəni dolaşır, yolu meşənin qırağındakı dağ yamacına dirənəndə buradakı mağarada misli görünməmiş bir mavi çiçək tapır. Bu çiçək təmiz, qatqısız poeziyanın, saf, ideal həyatın rəmzidir. Henrix mistik yuxusundan sona qədər həzz ala bilmir, anası yataq otağına girib onu oyadır. Bu da bir başqa rəmzdir: ana ürəyinin altında tələ gəzdirən, insanı baqi aləmdən çəkib tora salıb fani dünyaya atan varlıqdır. Hər məxluqun yer üzünə yolu ata belindən, ana bətnindən keçir.

Az sonra Henrix dədəbaba yurdu Turingiyanı tərk eləyib anasıyla birlikdə ana vətəni Auqsburqa yola düşür. Onlar Almaniyanın cənubuna gedən tacirlərlə yol yoldaşı olurlar. Henrix bütün canlı varlıqların ruhuna hökmü yetən şairlər, onların göstərdiyi möcüzələr haqqında tacirlərin danışdığı rəvayətləri həyəcanla dinləyir, çünki özü də belə şair olmaq arzusundadır. Rəvayətin birində deyilir ki, keçmiş zamanlarda gəmiylə səyahətə çıxmış bir nəğməkar şairin sərvətini talamaq niyyətiylə gəmi sahibi onu aradan götürtmək istəyirmiş. Fəqət şairin nəğməsi vəhşi dərya sakinlərinə necə əsər eləyirsə, heyvanlar onun canını quldurlardan qurtarıb xəzinəsini özünə qaytarırlar. İkinci rəvayətdə isə meşədə bir komada yaşayan şairə qoşulub atasının sarayından qaçan padşah qızından danışılır. Bir ildən sonra şair kürəkən öz nəğməsiylə padşahı necə yumşaldırsa, qəzəbli atanın hirsi soyuyur, onları da, dünyaya yenicə gəlmiş nəvəsini də bağrına basır.

***

Səfər günlərinin birində yolçular bir qoca döyüşçünün qəsrində əylənirlər. Burada səlib yürüşünə hazırlıq görülür. Henrix qəsrin ərazisində əsir müsəlman qızı Züleyma ilə tanış olur. Qız vətən həsrəti çəkir, müharibə törədənlərə lənət oxuyur.

Yola davam eləyən yolçular bir dağətəyi kənddə ləngiyirlər, burada Henrix bir qoca mədənçini söhbətə tutur. Qoca ona öz işinin sirlərindən, yerin təkində gizlənmiş metallardan, minerallardan danışır. Onlar birlikdə dağ ətəyindəki mağaralara baş çəkirlər, burada Henrix inzivaya çəkilmiş bir zahidlə tanış olur. Bu adam keçmişində cəsur döyüşçü, şöhrətli zadəgan olub, ancaq sonra insanlardan yorulub, öz içindəki həqiqətlərə dalmaq üçün, özünü dinləmək üçün həyatın sahilinə çıxıb. Zahid onlara öz kitablarını göstərir. O kitablardan birində Henrix içində durduğu mağaranı, özünü, yanındakı qoca mədənçini, zahidi görür, ancaq hamısı ona tanış olmayan yad qiyafələrdədir, üstəlik, yazılar da onun oxuya bilmədiyi işarələrlə yazılıb. Kitabı varaqladıqca o, həyatının davamını izləyir, məlum olur ki, başına gələsilər əvvəlcədən bu kitaba yazılıbmış (Markesin “Yüz ilin tənhalığı” romanındakı qaraçı Melkiadesin perqamentlərini xatırladım), bu kitab bəşərin tale kitabı, Platonun diliylə desək, ideyalar aləminin, islamın təbirincə desək, lövhiməhfuzun rəmziymiş. Bilik, savad, bacarıq isə, Əflatuni-ilahinin qeybdən xəbər verdiyi kimi, göydə yazılanları xatırlamaqdan başqa bir şey deyilmiş.

Nəhayət, Henrix Auqsburqa, babasının evinə çatır. Burada o, zahidin kitabında şəklini gördüyü şair Klinqsorla, bir də onun qızı Matildayla tanış olur. Elə ilk baxışdanca Henrix qıza vurulur, gənclər nişanlanırlar. Aydın məsələdir ki, Matilda nakam Sofinin obrazıdır.

Klinqsor bir ustad kimi gənc Henrixin mənəvi təkamülünün qayğısına qalır, ona ruhani gücünü işə salmağın, daxili potensialını poeziyaya çevirməyin, əşyaların, hadisələrin mahiyyətinə varmağın yollarını öyrədir. Bundan ötrüsə ilkin şərt səmimiyyətdir, çünki saf könül, səmimi qəlb hər şeyə işıq salır. Klinqsorun fikrincə, poeziya insan ruhunun başlıca xassəsidir. Axşam ziyafəti əsnasında Henrixin xahişiylə Klinqsor məclis əhlinə poeziyanın özünə düşmən təmayüllər üzərində qələbəsindən bəhs eləyən simvolik bir nağıl danışır.

***

Yarımçıq qalmış ikinci hissədə Henrix Matildanın ölümündən sonra dərin qüssəyə qapılıb dağlarda sərgərdan dolaşır. Buradan baxanda Auqsburq ayaq altındaymış kimi görünür, aralıda şütüyən çayın suları ayna kimi bərq vurur, elə bil su dilində nəsə mübhəm bir sirri faş eləyir. Çay qırağında kök salmış palıd şairi görəndə titrəməyə başlayır, ağacın dibindəki qaya parçasından lal bir cingilti qopur, torpağın altından şən nəğmə eşidilir. Palıdın içindən gələn səs Henrixdən ud çalıb mahnı oxumağı iltimas eləyir, söz verir ki, xahişini yerə salmasa, istədiyi qız qarşısında peyda olacaq. Henrix Matildanın səsini tanıyır. Ağacın yarpağında sevgilisinin ona nəvazişlə baxan çöhrəsi əks olunur.

Görüntü yoxa çıxanda onun qəlbindən əzablar, qayğılar da silinir, yerində yalnız sakit, məsum bir qüssə qalır. İtki ağrısı, boşluq duyğusu Henrixin yaxasını buraxır, oğlan oxumağa başlayır. Bu zaman o, bir qızın yaxınlaşıb onu arxasınca apardığının fərqinə varmır. Qız Henrixi qoca bir həkimlə tanış eləyir, ancaq gəncə elə gəlir bu kişi səfər üstündə gördüyü həmin o mədənçi qocadır.

Sən demə, bir zamanlar Henrixin atasıyla da görüşən bu ixtiyar həkim ona heykəltəraş olmağı məsləhət görübmüş. Ancaq gəncin atası gerçək təbiətinin çağırışına qulaq asmayıb, ətrafındakı reallıq onun içində dərindən dərin kök atıb, nəticədə ata sadəcə, mahir sənətkar olub. Qoca istəyir Henrix doğma şəhərinə qayıtsın, ancaq oğlan deyir ki, vətənini diyar-diyar gəzdikcə ölkəsini daha yaxşı tanıyır, həm də çox gəzən çox bilər. Sonra onlar vicdanın gücü, şərin kökü, kainatda mövcud olan dünyaların qarşılıqlı əlaqəsi, birliyi haqda fəlsəfi dialoqa girirlər.

***

Novalis bu bölümdə göstərmək istəyirdi ki, dünyada hər nə varsa hamısı - təbiət də, tarix də, savaş da, dinc həyat da poeziyaya çevrilir, çünki poeziya dünyada bütün cansızlara can verən, bütün ölü canlara üfürülən ruhdur.

Romanın ikinci hissəsində Henrix ətraf aləmlə daha dolğun təmas qurmalıydı, İtaliyaya getməli, hərbi yürüşlərə qoşulmalı, imperatorun varisiylə dostlaşmalı, Şərq səfərinə çıxmalı, sonda doğma Turingiyaya qayıdıb Klinqsorla birlikdə şeir yarışmasında iştirak eləməliydi. Romanın davamı rəmzi-mifoloji pritçaya çevrilməli, bu bölümdə poeziyanın sehri, sözün qüdrətiylə heyvanlar, quşlar, bitkilər, daşlar dilə gəlməli, Henrix varlığın yaxasını açıb zamansız-məkansız, dərdsiz-ölümsüz möcüzələr aləminin qoynuna girməliydi.

Matilda ayrı-ayrı qadınların timsalında tez-tez Henrixin qarşısına çıxmalıydı. Sonda Henrix, nəhayət, yuxusunda gördüyü mavi çiçəyi dərib, mistik rəmzi real dünyada zühura gətirməliydi...

***

Bu sirli mətnin, ümumən Novalis yaradıcılığının dünya ədəbiyyatına nə qədər güclü təsir göstərdiyi ədəbiyyat xiridarı üçün yenilik olmasın gərək. Meterlinkin, Taqorun, Tomas Mannın, Hessenin, Rilkenin, Borxesin, Kasaresin, Rulfonun, Kastanedanın, Markesin, Ekonun, Koelyonun... yaradıcılığında bu təsirin izlərini sezmək elə çətin deyil. Milli ədəbiyyatımıza gələndə, Ramiz Rövşənin “Süd dişinin ağrısı” poemasında o dünyayla alış-verişə girişən ovçunun da alveri Novalisin metafizik aləmlə alverinə çox bənzəyir.

Bütün bunlar o bəlli həqiqəti bir daha sübuta yetirir ki, hər bir yeni ədəbiyyat köhnələrlə (dəxli yoxdur, şüurlu, ya şüursuz) dialoqda yaranır, hər təzə söz, şair deməli, tozu alınmış köhnə sözdür, hər gələn dahi sənətkar varlığın camalına dünyaya gəlmiş-getmiş nəhənglərin çiynindən baxır. Bu sayaq ədəbi varislikdən kənarda gerçək sənət yarana bilməz.

Elə Novalisin mavi çiçəyi də Gilqameş haqqında qədim şumer dastanındakı dirilik çiçəyinin genetik varisidir. Sonradan o mavi çiçək Meterlinkin sehirli əllərində qanad açıb göy quşa çevriləcəkdi. Henrixin ruhani səfəri də Əttarın dərviş quşlarının mistik yürüşünün bir başqa formada təkrarıdır. Onun mərhəmət saçan vəhşiləri hələ neçə yüz il əvvəl Məcnundan təlim-tərbiyə almışdılar. Öz növbəsində Koelyonun özünü axtarışında, özündən-özünə ruhani səfərində cansız əşyalardan belə yardım, anlayış görən kimyagəri də Henrix fon Ofterdingendən dərs alıb.

Novalisin arzuladığı, ucundan-qulağından bizə də göstərdiyi ideal dünya Platonun ideal, ruhani cəmiyyətindən (qəsdən dövlət demirəm, çünki elə dövlət olmaz) də maraqlıdır. Ancaq məsələ burasındadır ki, Platon olmasaydı, xristianlıq da olmayacaqdı, xristianlıq olmasaydı, Novalis olmayacaqdı. Bax belə...



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Onların diqqətə ehtiyacı var...

Əlillik yoluxucu xəstəlik sayılmır. Heç kim əlil olmağı seçmir. İnsanın iradəsi xaricində olan əlillik anidən və bir göz qırpımında baş verir. Sığortalanması heç cür mümkün olmayan bu hal yaş, din, dil, irq fərqi də tanımır. İstənilən zaman hər birimizin əlil olma ehtimalı var.

Əlillik və şikəstlik müxtəlif yollarla yaranır: anadangəlmə, müharibələr, yol-nəqliyyat hadisələri, istehsalat qəzaları, xəstəliklər nəticəsində qazanılmış əlillik və şikəstlik... Ümumiyyətlə, əlillər hər cəmiyyətdə ən həssas təbəqə sayılırlar. Elə buna görə də bütün dünyada fiziki imkanları məhdud olan insanlara dövlətlər və cəmiyyətlər səviyyəsində qayğı göstərilir, onların reabilitasiyası, məşğulluqlarının təmin olunması istiqamətində konkret addımlar atılır.

## Dünya əhalisinin ən kasıb hissəsini təşkil edirlər

Yeri gəlmişkən, bu gün bütün dünyada Beynəlxalq Əlillər Günü kimi qeyd olunur. Bu barədə 1992-ci il dekabrın 14-də BMT Baş Assambleyasının qətnaməsi qəbul olunub. Əlamətdar tarixin hədəfi ictimai həyatın bütün sahələrində əlillərin hüquqlarının qorunması və geniş ictimaiyyətin diqqətini onların problemlərinə yönəltməkdir.

Dünyada yaşayan əlillər cəmiyyətin həyatında tamhüquqlu üzv kimi iştirak etmək üçün fiziki, ictimai-iqtisadi və davranış məhdudiyyətləri ilə üzləşirlər. BMT-nin məlumatına əsasən, onlar dünya əhalisinin ən kasıb hissəsini təşkil edir və təhsil, səhiyyə, məşğulluq sahələrində, eləcə də sosial və hüquqi yardım almaq baxımından digər cəmiyyət üzvləri ilə eyni imkana malik deyillər.

## Ölkəmizdə əlil hüquqları qorunur...

2006-cı ildə “”Əlilliyi olan şəxslərin hüquqları haqqında” BMT-nin Konvensiyasına qoşulan Azərbaycanda əlil hüquqlarının qorunması, onların sağlamlıqlarının bərpası, sosial rifahının yaxşılaşdırılması, mənzillə təminatı, peşə ixtisasına yiyələnməsi, bir sözlə, tam hüquqlu üzv kimi cəmiyyətə inteqrasiya olunması üçün tədbirlər görülür. Həmin sahələrin hər biri üzrə lazımlı addımlar atılır.

**Müharibə, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və digər xüsusi səbəblərlə əlaqədar əlilliyi olan şəxslər, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslər pensiya və ya müavinətlə yanaşı, Prezidentin aylıq təqaüdü ilə də təmin edilirlər. Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edənlərə də Prezidentin aylıq təqaüdü ödənilir**

## Son 5-6 ildə ciddi irəliləyişlər olub!

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti Azərbaycanda əlilliyi olan şəxslərin də sosial təminatı, reabilitasiyası və cəmiyyətə inteqrasiyasının dəstəklənməsi tədbirlərinin ildən-ilə genişlənməsinə imkan verib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyi olan şəxslərə əlilliyə görə pensiya və ya aylıq sosial müavinət, eləcə də 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslər aylıq müavinət ödənilir. Müharibə, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və digər xüsusi səbəblərlə əlaqədar əlilliyi olan şəxslər, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslər pensiya və ya müavinətlə yanaşı, Prezidentin aylıq təqaüdü ilə də təmin edilirlər. Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edənlərə də Prezidentin aylıq təqaüdü ödənilir.

Bu sosial ödənişlərin ardıcıl olaraq artırılması təmin olunur. Dövlət başçısının imzaladığı Fərman və Sərəncamlar nəticəsində xüsusilə son 5-6 ildə bu sahədə ciddi irəliləyişlər əldə olunub.

## 7500-dən çox avtomobil verilib

Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə tarixi Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra 5600, ümumilikdə, ötən dövrdə 14400 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 324, ümumilikdə, ötən dövrdə 7500-dən çox avtomobil verilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan, 2021-ci ilin oktyabr ayında açılışı olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi isə əlilliyi olan şəxslərin və digər həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsinə mühüm dəstək göstərir. Ötən dövrdə burada mühüm bir hissəsi əlilliyi olan şəxslərdən ibarət 470 benefisiar müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlim, sosial pedaqoji və psixoloji xidmətlərdən yararlanıb.

Bütün bu tədbirlər ölkəmizdə əlilliyi olan şəxslərlə bağlı fəal dövlət siyasətinin aparıldığını göstərir.

***Yeganə BAYRAMOVA***



# Azercell ahıllar üçün kibertəhlükəsizlik mövzusunda təlim keçdi

***Lider mobil operator yaşlı nəslin nümayəndələri arasında rəqəmsal savadlılığın artırılmasına töhfə verir***

“Azercell Telekom” MMC cəmiyyətin həssas qruplarının rəqəmsal savadlılığının artırılmasına yönəlmiş təşəbbüslərini həyata keçirməyə davam edir. Yaşlı nəslin nümayəndələrinin kibercinayətkarların əsas hədəf kütləsindən biri olduğunu nəzərə alan lider mobil operator sosial xidmət müəssisəsinin sakinləri üçün xüsusi təlim təşkil edib.

Azercell-in İnformasiya Təhlükəsizliyi departamentinin əməkdaşlarının keçdiyi təlim yaşlı nəslin nümayəndələrini kiberdələduzluq, fişinq hücumları barədə məlumatlandırmaq məqsədi daşıyırdı. Təlim çərçivəsində ahıllar kiberdələduzların istifadə etdiyi müxtəlif vasitələr, gündəmdə olan kiberhücumlar və onlardan qorunma yolları ilə tanış oldular. Tədbir sual-cavab sessiyası ilə davam etdi.

“Azercell Könüllüləri”nin iştirakı ilə baş tutan tədbirdə təlim iştirakçılarına xüsusi hədiyyələr də təqdim edildi.

Xatırladaq ki, Azercell cəmiyyətin həssas təbəqəsi hesab edilən uşaqların da virtual məkanda təhlükəsizliyinin təmin edilməsi üçün təlimlər keçirir və bu istiqamətdə fəaliyyətini uğurla genişləndirir.

Daha ətraflı məlumat üçün: https://www.azercell.com/az/

## *İdman*

## Cüdo üzrə Azərbaycan çempionatının komanda yarışlarına yekun vurulub

Bakıda keçirilən cüdo üzrə Azərbaycan çempionatının komanda yarışlarına yekun vurulub.

AZƏRTAC xəbər verir ki, Bakı İdman Sarayında təşkil olunan yarışda qadınlar arasında 7, kişilər arasında isə 9 komanda kubok uğrunda mübarizə aparıb.




Qadınların yarışında -52, -57, -63, -70 və +70 kiloqram, kişilərin yarışında -66, -73, -81, -90 və +90 kiloqram çəki dərəcələrində ümumilikdə 104 cüdoçu gücünü sınayıb.

Yarışda komandalar uyğun olaraq qadınlar və kişilər arasında 2 fərqli qrupa bölünüb. Hər qrup daxilində komandalar bir-biri ilə qarşılaşıb. Qrup mərhələsində əldə edilən nəticələrə əsasən, müəyyən yerləri tutan kollektivlər yarımfinal və təsəlli mərhələdə mübarizəni davam etdirib.

Qadınlar arasında bürünc medal uğrunda görüşlərdə “Neftçi” İdman Klubu (2) 3:0 hesabı ilə “Umbayev Sport Klub”a, “Cüdo Klub” 2012 3:1 hesabı ilə “Azəri-Cüdo İdman Klubu”na qalib gəlib. Final görüşü “Neftçi” İdman Klubu (1) ilə Şuşa UGİM arasında keçirilib. Şuşa UGİM 3:1 hesabı ilə qalib gələrək qadınlar arasında komanda yarışlarının kubokunu və qızıl medallarını qazanıb.

Kişilər arasında bürünc medal uğrunda görüşlərdə Neftçi İdman Klubu (1) 3:0 hesabı ilə “Neftçi” İdman Klubuna (1), “Kanokan TT” İdman Klubu 3:1 hesabı ilə “Sərhədçi” İdman Mərkəzinə qalib gəlib. Final görüşü “Cüdo Klub 2012” ilə “Atilla” İdman Klubu arasında keçirilib. “Cüdo Klub 2012” 3:1 hesabı ilə qalib gələrək kişilər arasında komanda yarışlarının kubokunu və qızıl medallarını qazanıb.

Qalib komandalara mükafatları gənclər və idman naziri Fərid Qayıbov, gənclər və idman nazirinin müavini Mariana Vasileva, Nazirliyin İdman şöbəsinin müdiri Elnur Məmmədov, Azərbaycan Cüdo Federasiyası (ACF) İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Cüdo Veteranları Assosiasiyasının prezidenti, “Cüdo Klub 2012” İctimai Birliyinin sədri və klubun təsisçisi Azər Əsgərov, vitse-prezident Elnur Məmmədli və ACF-in icraçı vitse-prezidenti Rəşad Rəsullu təqdim ediblər.

## Gürcüstandan olan güləşçimiz beynəlxalq turnirin qalibi olub

Gürcüstanın Kutaisi şəhərində 15 və 17 yaşlılar arasında yunan-Roma güləşi üzrə beynəlxalq turnir keçirilib.



AZƏRTAC xəbər verir ki, Əməkdar idman ustası, ikiqat dünya və Avropa çempionu Teymuraz Apxazavanın xatirəsinə həsr olunmuş turnirdə Gürcüstan, Polşa, Macarıstan, Estoniya, Latviya, Litva və Ermənistandan olan 400-dən çox idmançı iştirak edib.

Turnirdə Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin yetirməsi Hüseyn Mansurov 55 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gəlib.

H.Mansurov final görüşündə Ermənistandan olan rəqibini 9:0 hesabı ilə vaxtından əvvəl məğlub edərək 1-ci yerə layiq görülüb.

## “Araz-Naxçıvan” 30-cu qələbəsini qazanıb

“Araz-Naxçıvan” klubu Azərbaycan çempionatında 30-cu qələbəsini qazanıb.




“Report” Peşəkar Futbol Liqasının mətbuat xidmətinə istinadən xəbər verir ki, yubiley Misli Premyer Liqasının XV turuna təsadüf edib.

Elmar Baxşıyevin baş məşqçi olduğu komanda öz meydanında “Turan Tovuz”a 1:0 hesabı ilə qalib gəlib.

Naxçıvan təmsilçisi 30-cu qələbəsini 93-cü oyunda əldə edib. Bu qələbələrdən 19-u evdə, 11-i səfərdə qazanılıb.

“Araz-Naxçıvan”ın ilk uğuru 2000/2001 mövsümünə təsadüf edib. Muxtar Respublika təmsilçisi 2000-ci il avqustun 20-də səfərdə Quba “Şahdağ”ına 1:0 hesabı ilə qalib gəlib.

Qeyd edək ki, Naxçıvan klubu ölkə çempionatında 30 və daha çox qələbə qazanan 33-cü komandadır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66

Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4795**
**Sifariş: 2815**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli